www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyun 2018-ci il Bazar ertəsi № 126 (7015) Qiyməti 60 qəpik


**Xəbər**

## Siyəzəndə faciə: atanın qəddar davranışına dözməyən oğul özünü öldürdü

yazısı səh.13-də

**Gündəm**

### Lələ təpənin ardınca düşmənə Günnüt zərbəsi




26 ildir işğalda olan ərazi azad edildi; **Üzeyir Cəfərov:** "Atmalı olduğumuz lazımi addımları atacağıq..."

yazısı səh.3-də

### Bakının işğalçıya son xəbərdarlığı və "addım-addım" taktikası

yazısı səh.11-də

### Rusiya səfiri Bakıda işə başladı, ABŞ səfiri nə vaxt gəlir?

yazısı səh.9-da

### Məhkəməyə verilən Fazil Mustafa: "Məsələni yumşaltmaq ilə bağlı fikrimiz var..."

yazısı səh.10-da

### Paşinyanın qalmaqallı bir ayı - ermənilər ümidlərini itirirlər

yazısı səh.9-da

### Avropadakı azərbaycanlı mühacirlərin ilginc hekayələri

yazısı səh.15-də

### Türkiyədə kritik seçkilər yaxınlaşır - prezident kim olacaq?

yazısı səh.12-də

### Yay mövsümündə düzgün necə qidalanmalı? - həkimin qadağa və tövsiyələri

yazısı səh.14-də

### Supermarketlər bayram endirimlərinə hazırlaşır

yazısı səh.4-də

**Ramazan ayının 26-cı günü**

İftar 20.27. İmsak 03. 18-dək (QMİ)

26-cı günün duası: "İlahi, bu gün mənim səyimi bəyənilmiş, günahımı bağışlanmış, əməlimi qəbul olunmuş və eybimi örtülmüş qərar ver! Ey eşidənlərin ən gözəl Eşidəni!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

Bu gün 4-cü Qədr gecəsidir.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## "Qaz müharibəsi" yeni mərhələdə...

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ "YENİ XƏRİTƏ" CIZIR - TARİXİ GÜN

Sabah qardaş ölkədə TANAP-ın təntənəli açılış mərasimi olacaq; prezident İlham Əliyevin də qatılacağı törən ən çox hansı çevrələri rahatsız edir? Səngəçalı Əskişəhərə birləşdirən dəyər




yazısı səh.8-də

## "Koroğlu" MMC-nin daha bir işçisi intihara hazırlaşır - şok gəlişmə

Şirkət ətrafında qalmaqal böyüyür; ictimai vəkil: "Rəhbərliyin əməlləri mütəşəkkil cinayətkar dəstənin fəaliyyətindən fərqlənmir..."

yazısı səh.6-da



*Vahid Əhmədov:*

### "Qubanın icra başçısı var idi, daşı daş üstə qoymadı"

yazısı səh.7-də



*Əli Məsimli:*

### "Azərbaycanda sahibkarlıq deyəndə daha çox məmur sahibkarlığı göz önünə gəlir"

yazısı səh.5-də



*Eyyub Hüseynov:*

### "Ləş ət mafiyasını bələdiyyələr və digər qurumlar dəstəkləyir"

yazısı səh.14-də

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018



# Mir Şahin dəhşətləri açdı: "Məni əsir edib apardılar"

**"Məni bir akademikin adı ilə söyən adamlar bir şeyi anlamır ki, akademik məni bir dəfə, amma bu adamlar yüz min dəfə söyüb". Kult.az xəbər verir ki, bu sözləri Real TV-nin rəhbəri Mir Şahin Ağayev ASAN Radioya müsahibəsində deyib. O bildirib ki, bu barədə ilk dəfə danışır.**

"Məni bir akademikin adı ilə daha çox söyürlər. Tamaşaçılar cavandır. Əksəriyyəti müstəqillik dövründə dünyaya gəlmiş insanlardır və onlar bəlkə də məni heç tanımırlar. Onlar bizim keçmişimizdən xəbərdar deyil", - deyə o bildirib.

Mir Şahin vurğulayıb ki, o, elə-belə jurnalist deyil: "Mən 25 il bundan öncə Gəncə hadisələrini, Azərbaycan dövlətinin necə parçalandığını, bizim vətəndaşlarımızın bir-birini necə qırdığını, Şimal tərəfdən "Sadval" təşkilatının nümayəndələrinin zurna çala-çala bizim sərhədi necə tapdalayıb keçdiyini görmüşəm. Vahid Mustafayevlə mən o kütlənin ayağının altında qalmışıq. Bizi Dərbəndə əsir aparıb Rus Dram Teatrında 8 saat girov saxlayıblar. Mən Qarabağda gedən döyüşlərdə olmuşam. Və mən bu dövlətin nə boyda çətinliklər, əzab-əziyyətlər bahasına formalaşdığının şahidiyəm. Nə vaxtsa mən ölüb gedəcəm. Amma Azərbaycan jurnalistikası tarixində bapbalaca bir cümlə də olsa, adım yaşayacaq. Məni söyənlər o cümləyə hörmət etməyən insanlardır. Allah onların canını salamat eləsin!"

# Ərəb biznesmen Bakıda otel aldı



**Küveytli investor Bakıda yerləşən "Monolit Plaza" lüks otelini alıb. Bunu Trend-ə vəziyyətlə tanış olan mənbə bildirib. Mənbənin sözlərinə görə, hotelin yaxınlarda adı dəyişdirilə bilər: "Ümumilikdə, investor Qəbələdə yeni otel və ticarət mərkəzi tikməyi planlaşdırır. O, həmçinin, Bakıda torpaq sahəsini icarəyə götürüb".**

Qeyd edək ki, Azərbaycan qanunvericiliyi ölkə ərazisində xarici vətəndaşlara torpaq sahələrini almağa imkan vermir və yalnız icarəni nəzərdə tutur. Əcnəbilərə kənd təsərrüfatı istehsalı üçün icarəyə götürülən torpaq sahəsinin maksimum icarə müddəti 10-15 ildir, digər məqsədlərlə götürülən sahələrə - 99 il.

Daha öncə, Azərbaycan Turizm Assosiasiyasının (AzTA) sədrinin müşaviri Müzəffər Ağakərimov qeyd edib ki, ərəb investorlar Azərbaycanda turistik daşınmaz əmlaka marağı artırıblar. Ağakərimov deyib ki, onların diqqətini təkcə Bakı deyil, həmçinin regionlar da cəlb edir.

# "Sərhəd-sipər" əməliyyatı başa çatıb

**Azərbaycan-Rusiya sərhədində keçirilən "Sərhəd-sipər" əməliyyatı yekunlaşıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, iyunun 4-də başlayan əməliyyat dünən bitib.**

Qeyd edək ki, əməliyyatlar Azərbaycan Respublikası və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən keçirilib. Əməliyyatlarla əlaqədar Rusiya ilə sərhəd rayonlarında polis postları qurulmuşdu.

Bir həftə davam edən əməliyyatların əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarət olub.

# Rusiyanın yeni səfiri: "Azərbaycandakı inkişaf Rusiyada maraqla izlənilir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun etimadnaməsini qəbul edib. Səfir Mixail Boçarnikov fəxri qarovul dəstəsinin qarşısından keçib.**



Mixail Boçarnikov etimadnaməsini prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib. Dövlət başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, hərbi-texniki, humanitar və bütün digər sahələrdə uğurla inkişaf etdiyini bildirib. İlham Əliyev ölkələrimiz arasında mövcud olan bu münasibətlərin strateji tərəfdaşlıq əlaqələri kimi dəyərləndirdiyini vurğulayıb. Münasibətlərimizin zəngin tarixə malik olduğunu deyən prezident bu əlaqələrin gələcəkdə də uğurla və dinamik şəkildə inkişaf edəcəyinə əminliyini bildirib.

Səfir Rusiya prezidenti Vladimir Putinin ona səfirlik fəaliyyəti dövründə Azərbaycan ilə əlaqələri daha da möhkəmləndirmək istiqamətində səylər göstərmək barədə tapşırıqlar verdiyini söyləyib. O qeyd etdi ki, Rusiya-Azərbaycan ikitərəfli münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərinin Rusiyada maraqla izlənildiyini deyən Mixail Boçarnikov Bakıda olduğu bir neçə gün ərzində paytaxtda aparılan abadlıq işlərinin onda dərin təəssürat yaratdığını deyib.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın bu bölgələrinə leysan düşəcək

**Ölkə ərazisində iyunun 11-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavata.com-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşama doğru yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-18° isti, gündüz 25-30° isti olacağı gözlənilir.**

Abşeron çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) suyun temperaturu 20-21°, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə zəif şimal-şərq küləyi əsəcək, dəniz suyunun temperaturu 21-22° isti təşkil edəcək.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Temperatur gecə 12-17° isti, gündüz 25-30° isti təşkil edəcək.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə 7-11° , gündüz 15-20° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimal olunur. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Temperatur gecə 14-19° isti, gündüz 27-32° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında da əsasən yağmursuz olacaq. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Havanın temperaturunun gecə 16-18° isti, gündüz 25-30° isti, dağlarda gecə 7-11° isti, gündüz 17-22° isti təşkil edəcəyi gözlənilir.

# Köçəryan Paşinyana: "Qarabağı danışıqlara cəlb eləmək mümkün deyil"

**Ermənistanın baş naziri Nikol Paşinyan ötən həftə növbəti dəfə Dağlıq Qarabağın danışıqlarda tərəf kimi iştirakı məsələsini qaldırıb. Hökumətin proqramının parlamentdə müzakirəsi zamanı Paşinyan deyib ki, əslində onun Dağlıq Qarabağın adından danışıqlar aparmağa mandatı və səlahiyyəti yoxdur. Çünki qarabağlı deyil. Robert Köçəryan və Serj Sərkisyan isə qarabağlı olduqları üçün Dağlıq Qarabağın adından danışıqlar aparmaq mandatına malik idilər.**



"Onlar düz ediblərb ya yox, bu, başqa məsələdir, lakin bunun üçün onların öz səbəbləri olub" - Paşinyan Köçəryanın və Sərkisyanın Dağlıq Qarabağın adından danışıqlar aparmasını belə dəyərləndirib.

Virtualaz.org xəbər verir ki, Nikol Paşinyanın bu bəyanatı növbəti dəfə Ermənistanda danışıqlar prosesi və Dağlıq Qarabağın orada iştirakı mövzusu ətrafında polemikalara səbəb olub. Politoloq Manvel Sərkisyan deyir ki, Paşinyanın Dağlıq Qarabağın danışıqlarda iştirakının dayandırılmasına görə keçmiş prezidentləri günahlandırması onların şəxsi hesablaşmalarıdır və məsuliyyətdən yayınmaq cəhdidir.

"Burada heç bir müsbət yanaşma yoxdur. Bu, mövcud situasiya ətrafında diskussiya deyil, məsuliyyətdən yayınmaq istəyən adamların hesablaşması, çəkişməsidir" - politoloq "Sputnik Armenia" agentliyinə deyib.

Robert Köçəryanın ofisi də dərhal Paşinyana cavab verib. Keçmiş prezidentin ofisinin rəhbəri Viktor Soqomonyan bildirib ki, Dağlıq Qarabağ danışıqlarda iştirakını 1998-ci ildə deyil, Köçəryanın prezidentliyindən əvvəl - 1996-cı ildə, yəni Levon Ter-Petrosyanın dövründə dayandırıb.

"Məhz onda Ermənistan hakimiyyəti hansısa səbəbə görə buna razılaşıb və müvafiq sənədlər açıq istifadədə qalmaqdadır" - Soqomonyan deyib. Köçəryanın ofisinin rəhbəri qeyd edib ki, əslində Dağlıq Qarabağ bilavasitə olmasa da danışıqlar prosesində iştirak edir, hər dəfə ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT sədrinin şəxsi nümayəndəsi regiona səfər edəndə Dağlıq Qarabağ nümayəndələri ilə də görüşürlər. Və bütün danışıqlar prosesi ərzində Ermənistan tərəfi həmişə bəyan edib ki, yekun razılaşma Dağlıq Qarabağın razılığı və iştirakı olmadan mümkün deyil.

Köçəryanın nümayəndəsi Paşinyanın Dağlıq Qarabağın danışıqlarda iştirakını bərpa etmək səylərini alqışlayır, amma onu da qeyd edir ki, bu yanaşma faktiki olaraq danışıqlardan imtinadır. "Başqa məsələdir ki, Ermənistanın yeni hakimiyyətinin danışıqlardan faktiki imtinası hansı nəticələrə gətirib çıxaracaq" - Viktor Soqomonyan bildirib.

Köçəryanın sözçüsü əlavə edib ki, Qarabağın danışıqlara cəlb edilməsi bu gün həlli mümkün olmayan məsələdir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# Lələ təpənin ardınca düşmənə Günnüt zərbəsi

## 26 ildir işğalda olan ərazi azad edildi; **Üzeyir Cəfərov:** "Atmalı olduğumuz lazımi addımları atacağıq..."

**Ötən həftə Azərbaycan ordusunun 26 ildir işğal altında olan Şərur rayonunun Günnüt kəndinə nəzarəti tam əlinə alması və bir sıra yüksəklikləri azad etməsi bu günlərin əsas hadisəsi oldu. Ələ keçirilən yüksəkliklərin bəzilərinin hündürlüyü dəniz səviyyəsindən 1500 və 2000 metrə çatır ki, bu da hərbi nöqteyi-nəzərdən ölkəmiz adına çox böyük strateji əhəmiyyət kəsb edir.**




Sabiq dövlət müşaviri Qabil Hüseynli bu hadisəni axar.az-a şərh edərkən bir sıra diqqətçəkən məqamlara toxunub: "Azərbaycanın ordusu düşmənin xain hərəkətlərinin qisasını bir gün alacaqdı. Son iki ayda aparılan ciddi hazırlıqlardan sonra növbəti əməliyyat da uğurla nəticələndi. Əməliyyat təkcə Günnüt deyil, daha iki kəndin tutduğu əraziləri əhatə edirdi. Çox ciddi döyüşlər nəticəsində Azərbaycan tərəfindən cəmi bir itki oldu. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi birləşmələrinin döyüşçüləri çox böyük qəhrəmanlıqla üç gün davam edən əməliyyatlar nəticəsində 11 min hektar ərazini ermənilərdən azad etdi. Ermənilər həmin ərazidə çox az sayda hərbi postlar qurmuşdular, ona görə də buranı neytral bölgə adlandırırdılar. Amma döyüş əməliyyatları başlayan zaman əraziyə Ermənistan ordusunun yeni dəstələri də cəlb edilmişdi. Ancaq Naxçıvan Əlahiddə Qoşunu müasir döyüş üsulları və texnikası hesabına qısa müddətdə erməniləri geri oturtdu. Nəticədə Ermənistanın nəzarət etdiyi, əslində isə Naxçıvana məxsus olan və Günnüt kəndi də daxil olmaqla sonradan neytral zona kimi tanınan ərazilər azad olundu".

Politoloq bildirib ki, strateji əhəmiyyət kəsb edən yüksəkliklər silsiləsinin geri qaytarılması Azərbaycan üçün çox böyük önəm daşıyır:

"Naxçıvanın itirilmiş ərazilərinin geri qaytarılması həm də Azərbaycan ordusunun yeni döyüş yüksəkliklərinə sahiblənməsi prosesini təmin edir. Çünki həmin yüksəkliklərdən İrəvana qədər olan əraziyə və İrəvan-Yexeqndzor-Laçın-Xankəndi yoluna tam nəzarət etmək və buradan istənilən zərbəni endirmək imkanlarını təmin edən ərazi artıq ordumuzun nəzarətindədir. Azərbaycan bununla döyüş meydanında çox böyük strateji qələbə əldə edə və lazım gələrsə, düşmənin təhdidlərinə qarşı bu ərazilərdən istifadə etməklə Ermənistana, Dağlıq Qarabağ və işğal altında olan ərazilərə güclü raket və artilleriya zərbələri endirə biləcək".

Ekspertlər 2016-cı ilin aprel uğurlarından sonra növbəti dəfə ordumuzun belə bir uğuru təkrarlanmasını gələcək baxımdan çox önəmli sayırlar.

Hərbi ekspert Üzeyir Cəfərov həm də bildirdi ki, bu cür məlumatların yayılması zamanı dövlət və dövlətçiliyin mövqeyini gözləməliyik: "Çünki bəzən elə xəbərlər olur ki, onlar bizə ziyan gətirə bilər. İstənilən halda silahlı qüvvələrimizin nümayəndələrinin nəzarət etdiyi ərazi Azərbaycan ərazisidir. 1992-ci ildə Azərbaycan ordusu tam formalaşmadığı bir zamanda ermənilər oranı da ələ keçirmişdi. Son vaxtlar Ermənistanda baş verən məlum gərginliklər döyüş bölgələrində də özünü göstərməkdədir. Əsgərlərimiz ağıl işlədərək, hərbin qaydalarından istifadə edərək həmin əraziləri öz nəzarətimizə tam şəkildə qaytarıblar".

Ekspert bildirir ki, həmin ərazidə böyük bir döyüş əməliyyatı keçirməyə də ehtiyac olmayıb: "Ordumuz sadəcə lazım olan taktiki addımları atıb və bu gün həmin ərazilər etibarlı şəkildə ordumuzun nəzarətindədir. Bunu bu şəkildə demək olar. Ermənistan tərəfin bunu necə qələmə verəcəyinə gəlincə, Ermənistanın müdafiə nazirinin mətbuat katibi çox gülünc bir açıqlama verdi ki, guya Azərbaycan tərəfi onlara müraciət edib və ayın 6-7-də mülki şəxslərin oradakı qəbiristanlığı ziyarət etmələrini istəyib. Əvvəla, ermənilər həmin yerlərdə 90-cı illərdə bir salamat yer belə saxlamayıblar, hətta qəbir daşlarını belə dağıdıblar. Baxmayaraq ki, ora neytral ərazi idi. Ermənistan Müdafiə Nazirliyi nədən yaddan çıxarır ki, Azərbaycan Müdafiə Nazirliyinin onlarla heç bir əlaqəsi yoxdur. Belə olan halda Müdafiə Nazirliyimiz necə müraciət etdi? Azərbaycan mövqeyində qətidir. Biz artıq Şərur rayonundakı Günnüt kəndində olan mövqelərimizdə möhkəmlənmişik, əvvəlki təhlükələr yoxdur. İnsanlarımız bundan sonra o ərazilərə tam rahat şəkildə gedib gələcəklər".

Hərbi ekspert baş verən son hadisələrin çox ciddi bir mesaj olduğunu da qeyd etdi: "Azərbaycan indiyə qədər dəfələrlə bəyan edib ki, ərazisindəki işğal faktı ilə heç vaxt barışmayacaq. Gec-tez ölkəmiz düşmənin işğalçılıq siyasətinə son qoyacaq. İndi də bu mesajlar bu cür hadisələrlə verilməkdədir. Azərbaycan onsuz da öz əraziləri çərçivəsində beynəlxalq qurumlarla mübarizə aparır ki, bizim haqqımız, hüququmuz tanınsın. Biz Ermənistan əraziləri ilə bağlı heç bir fikir səsləndirməmişik. Yeganə səsləndirdiyimiz fikirlər vaxtı ilə Azərbaycan əraziləri sayılan mahallarla bağlıdır. Digər məsələləri həll edəndən sonrakı danışıqlar prosesində bu məsələləri qaldıra bilərik. Bu da gələcəyin söhbətidir. İndiki məqamda Dağlıq Qarabağ və ətraf rayonlar, eləcə də, Ermənistanla həmsərhəd olan və işğal altında qalan bir neçə kəndlə bağlı danışıqlar gedir və Azərbaycan bunlarla bağlı lazımi addımlarını atacaq. Ermənistanın indiki rəhbərliyi əvvəlkindən daha avantürist, populist bir şəxsdir. Paşinyan Sərkisyandan çox qəddardır. Ondan istənilən təxribatı gözləmək olar. Amma Azərbaycan prezidenti də dəfələrlə deyib ki, biz görürük beynəlxalq normalar işləmir, lazımi addımlarımızı atacağıq. Bu addımları atmaq üçün əlimizdə kifayət qədər əsaslar var. Mənə gəlir ki, yaxın günlərdə keçiriləcək hərbi paradda ölkə başçısı lazımi mesajları verəcək. Bundan sonra da atmalı olduğumuz lazımi addımları atacağıq".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Bakıda iki binanın sakinləri etiraza qalxdı: "Tikinti dayandırılsın..."

**Nəsimi rayonu 4-cü mikrorayon Hüseyn Seyidzadə küçəsində yerləşən 2 və 4 nömrəli binaların sakinləri etiraz aksiyası keçiriblər. Sakinləri narazı salan həyətlərində 16 mərtəbəli binanın tikintisinin nəzərdə tutulmasıdır.**




Bina sakinlərinin sözlərinə görə, ərazinin Mənzil İstismar İdarəsinin əməkdaşları həyəti abadlaşdırmaq adı ilə öncə avtomobil duracaqlarının yerini dəyişiblər. MİS əməkdaşları söyləyiblər ki, uşaqların oynaması üçün yer düzəldirlər. Daha sonra isə məlum olub ki, onların niyyəti başqadır...

Sakinlərin müraciəti ilə musavat.com-un reportyor qrupu olaraq əraziyə yollandıq. Müşahidə etdik ki, həqiqətən də binaların arasında olan kiçik ərazidə bəzi "abadlıq" işləri aparılıb, duracaqların yerləri dəyişdirilib, bir neçə ağac kəsilib. Lakin sakinlər qarşı çıxdığı üçün hələlik heç bir tikinti işinə başlanılmayıb.

Sakin Zakir Əliyev bildirdi ki, ərazidəki binaların kiçik bir həyəti var ki, orada da 16 mərtəbəli tikili inşa olunsa uşaqların oynaması, özlərinin hərəkəti üçün yer qalmır: "Ərazidəki üzbəüz binaların arasındakı bu kiçik yerdə uşaqlarımız oynayırlar, özümüz gəzirik, istirahət edirik. Burada çoxmərtəbəli bina tikilsə o zaman nəinki hərəkət etməyə, heç nəfəs almağa da imkan olmayacaq. Bu, hansı tikinti qaydasına uyğun addımdır? İkincisi də burada sovet dövründən tikilən xeyir-şər evi də var ki, binada kiminsə yas mərasimi düşəndə həmin xeyir-şər evində edir. İndi öyrənmişik ki, bina tikmək üçün xeyir-şər evini də sökmək istəyirlər. Belə işmi olar? Camaatı nə üçün düşünmürlər? Əvvəl gəldilər, ərazidəki "qaraj"ların yerini dəyişdilər. Soruşduq ki, nə edirsiniz? Dedilər ki, uşaqların oynaması, əyləncəsi üçün yer düzəldirik. Ancaq sonradan öyrəndik ki, bunlar heç də bizim uşaqlarımızı deyil, özlərini düşünürlər. Ərazidə 16 mərtəbəli bina tikiləcək".

30-dan çox sakin etiraz edərək bildirdilər ki, bina tikilən zaman onun hündürlüyü qədər digər binalarla arasında məsafə olmalıdır. Ancaq boş ərazi ilə oradakı 5 mərtəbəli binaların arasında heç 15 metr məsafə yoxdur.

Sakin Solmaz Əfəndiyeva söylədi ki, məsələ ilə bağlı Nəsimi Rayon İcra hakimiyyətinə müraciət ediblər: "Hazırda burada tikinti aparmaq istəyən fəhlələrin alətləri, əşyaları buradakı "qaraj"lardan birindədir. Sakitcə gəlib, ərazidə qazıntı aparıb, dirəklər basdırmaq istəyirdilər. Lakin qonşularla birlikdə buna qarşı çıxıb, onları qovduq. Sonrada qazdıqları yerləri doldurduq. İyunun 7-də 3 qonşu ilə birlikdə Nəsimi Rayon İcra Hakimiyyətinə yollandıq. Oradan bizə dedilər ki, guya tikinti işlərindən xəbərləri yoxdur. Bildirdilər ki, Bakı Şəhər İcra Hakimiyyətinə gedib, şikayətimizi ora bildirək. Oradan ayrılandan sonra Bakı Şəhər İcra Hakimiyyətinə getdik. İcra hakimiyyətində bizi bir xeyli gözlətdikdən sonra qəbul etdilər. Bildirdilər ki, əraziyə baxış keçirmək üçün nümayəndə göndərəcəklər. Lakin heç bir nümayəndə göndərilmədi. Əksinə, iyunun 8-də səhər saatlarında fəhlələr gəlib, yenidən qazıntı işləri aparmaq istədilər. Ancaq qonşular bu dəfə də işin aparılmasına imkan vermədilər".

2 və 4 nömrəli binada yaşayan uşaqlar da etiraz aksiyasında iştirak edib, bildirdilər ki, onların oynadığı yeri əllərindən almasınlar: "Biz burada binanın tikilməsini istəmirik. Çünki oynaya bilcəyimiz tək yer buradır. Burada da bina tikilsə, biz futbol oynaya, velosiped sürə bilməyəcəyik".

Yekun olaraq sakinlər bildirdilər ki, onlar həyətlərində tikinti aparılmasına icazə verməyəcəklər. Sona qədər mübarizə aparıb, bütün müvafiq instansiyalara şikayət edəcəklər.

**❑ Əli Rəis, Musavat.com**

# Xameneyi xarici ölkələrə niyə səfər etmir?

## Dini ekspert: “Ona qarşı sui-qəsd planları ifşa edildiyi üçün xarici səfərləri risklidir...”



**İranın ali dini lideri Ayətullah Əli Xameneyinin xarici ölkələrə səfər etmədiyi məlumdur. İranda dini lider istər şəxsi nüfuzu, istərsə də digər keyfiyyətləri ilə prezidentdən geri qalmır. Hətta onun sözünün çəkisi bəzən ölkə rəhbərindən belə ağır olur.**

Təkcə son bir faktı göstərək. İyunun 4-də Ayətullah Ruhullah Musəvi Xomeyninin vəfatının ildönümü ilə bağlı mərasimdə çıxışında A.Xameneyinin hökuməti nüvə fəaliyyətini yenidən bərpa etməyə çağırması, Nüvə Enerjisi Qurumuna mövcud nüvə anlaşması çərçivəsində 190 min sentrafuqa çatmaq üçün dərhal hazırlıqlara başlamağı tapşırması ölkəsini Amerika ilə az qala, açıq müharibəyə sürükləyib. Bu da onu göstərir ki, dini liderin hər bir mövqeyi dövlətin mövqeyidir. Amma bununla belə, o, bir müsəlman ölkəsinə belə, o cümlədən qonşu Türkiyə və Azərbaycana səfər etmir. Bu da zaman-zaman müzakirələrə səbəb olur.

Bunu da əminliklə onu da qeyd etmək olar ki, İranın dini lideri ölkə rəhbərini müəyyən edəcək əsas şəxslərdən biridir. İstənilən seçkidə onun mövqeyi nəticələri birbaşa təsir edir. Hətta dini liderin İranda prezidenti vəzifədən uzaqlaşdırmaq kimi səlahiyyəti var.

Dini ekspert Kənan Rövşənoğlu İranın ali dini lideri vəzifəsinin siyasi post olmadığını dedi: “O dövlət üzərində dini hakimiyyətin böyük lideri, ölkə qanunlarının İslama uyğun olmasını təyin edən və daha sonra bunun icrasına bir növ nəzarət edən qurumların başında dayanan şəxsdir. Ancaq dövlətin başçısı prezidentdir, siyasi anlaşmaları, danışıqları prezident aparır. Rəhbər isə ümumi xətti müəyyən edir. Əgər prezident ümumi xətdən kənara çıxarsa, dini lider onu vəzifədən uzaqlaşdıra və ya doğru istiqamətə yönəlməsi üçün xəbərdarlıq edə bilər. Bu baxımdan ali dini liderin hansısa ölkəyə səfər edib danışıqlar aparmasına gərək qalmır. Amma İran Konstitusiyasında rəhbərin xaricə səfər etməsi qadağan deyil. Sadəcə, buna gərək yoxdur, məsələn, Britaniya kraliçası da siyasi görüşlər üçün səfər etmir. Çünki bunun üçün hökumət var. İkinci tərəfdən İranın birinci ali dini lideri Ayətullah Xomeyni inqilabdan bir neçə ay sonra praktik olaraq siyasi fəaliyyətdən kənara çəkilib və yalnız əlahiddə mövzularda müdaxilə etmək ənənəsini qoyub. Hətta bir müddət Qum şəhərindəki evində yaşayıb. Sadəcə, zəruri görüşləri keçirir. Və nəhayət, İranın hazırkı dini lideri 1981-ci ildə sui-qəsdə məruz qaldıqdan sonra bir əli işləmir. Bir neçə dəfə ona qarşı sui-qəsd planları ifşa edildiyi üçün həm də xarici səfərləri risklidir. Ona görə də ehtimal ki, xarici ölkələrə səfərləri həm də buna görə olmur”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Ərdoğandan Avropaya xəbərdarlıq



**“Avstriyada məscidlərin bağladılması qərarı yeni bir xaç-hilal savaşına doğru aparır”. Axar.az xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

“Onlar indi də məscidlərimizi Avstriyada bağlama hesabları, planları aparırlar. Bunun axırı nəyə doğru gedir? Qorxuram ki, bu yeni bir xaç-hilal savaşına səbəb olacaq. Bu, Avstriya baş nazirinin atdığı addımlar dünyanı bu istiqamətdə aparır. Buna görə xüsusən Qərb dünyası bu insanlara yol göstərməlidir. Əgər bunlar yol göstərməsələr, bu hesablar fərqli bir şəkildə həyata keçiriləcək. Oradakı din adamlarımızı Avstriyanın xaricinə atacaqlarmış. Siz bunu edəcəksiniz, biz isə bu zaman boş dayanacağıq?”, - Ərdoğan bildirib.

# “Neftin bahalaşması benzinin qiymətinə təsir etməyəcək”

## Ekspert: “Benzinlə bağlı qərar vermək üçün uyğun zaman yetişməyib”

**2015-ci ildən sonra dünya bazarında neftin qiyməti ucuzlaşdığı ərəfədə Azərbaycanda ekspertlər bildirirdilər ki, benzinin qiyməti 70 qəpikdən 50 qəpiyə endirilmədir. Onlar bunu benzinin satışına tətbiq olunan verginin azaldılması yolu ilə reallaşdırmağın mümkün olduğunu düşünürdülər.**



Qeyd olunurdu ki, manatın dollar qarşısında dəyər itirməsi ölkədə ərzaq məhsullarının bahalaşmasına səbəb olub. Onların fikrincə, benzinin ucuzlaşması, bu prosesə müsbət mənada təsir edə bilərdi. Lakin bunun əksi baş verdi və Tarif Şurasının qərarı ilə ölkədə ən çox istifadə edilən “Aİ -92" markalı benzinin qiyməti 70 qəpikdən 90 qəpiyə qaldırıldı.

Hazırda dünya bazarında Azərbaycan neftinin 1 bareli 77 dollardan baha satılır. Bəs bu hal ölkədə benzinin qiymətinə necə təsir göstərməlidir?

“Yeni Müsavat”a danışan iqtisadi elmlər doktoru Fikrət Yusifov bildirdi ki, əslində hazırda benzinin qiymətinə baxılması üçün uyğun şərait mövcud deyil: “Neftin qiymətləri artıq bir neçə vaxtdır ki, qalxmaqda davam edir. Ancaq müəyyən enmələr onu deməyə əsas vermir ki, bundan sonrakı proseslərdə neft dünya bazarında ucuzlaşmaqda davam edəcək. Hələ ki, qiymətlərin sabit nöqtəyə qədər gəlib çatacağını heç kim konkret söyləyə bilmir. Bu baxımdan da neftin qiymətində baş verən hər hansı bir dəyişikliklər fonunda benzinin də qiymətinə yenidən baxmaq və buna uyğun hər hansı qərar qəbul etmək, hesab edirəm ki, tələskənlik olardı. Sadəcə olaraq, sabitləşmə məqamına qədər gözləmək lazımdır. Çünki indiki dönəmdə neftin qiymətinin qalxmasına daha çox siyasi amillərin təsiri var. Proseslərin nə vaxta qədər davam edəcəyinə rəy vermək çox çətindir. Ona görə də məsələdə qərar qəbul etmək, daxili bazar üçün benzinin qiymətinə baxmaq uyğun deyil. Bunun üçün zəmin yoxdur. Ümumilikdə isə qonşu dövlətlərlə mövcud qiymətlər kontekstində bizdəki qiymətləri normal saymaq olar. Söhbət Rusiya və digər dövlətlərlə müqayisədən gedir”.

Onu da qeyd edək ki, ötən ilin noyabr ayında Azərbaycanda “Aİ-95" premium və ”Ai-98" super markalı benzinin qiymətində də artım baş verdi. Hazırda xaricdən idxal edilən “Aİ-95" premium markalı benzinin yeni qiyməti 1,25 AZN, ”Ai-98" super markalı benzinin qiyməti 1,50 AZN təşkil edir. Bildirilirdi ki, qiymət artımının “Aİ-92" markalı benzinə aidiyyəti olmayacaq. Lakin çox keçmədi ki, Tarif Şurasının 2017-ci ilin 14 iyul tarixində keçirilmiş növbəti iclasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) müraciəti əsasında ”Aİ-92" markalı avtomobil benzininin pərakəndə satış qiymətini 1 litr üçün 90 qəpik səviyyəsində təsdiq etdi.

❑ **Əli RAİS, “Yeni Müsavat”**

# Paytaxt supermarketlərində bayram endirimləri olacaqmı?

**İslam dünyasının müqəddəs bayramı - Ramazana sayılı günlər qalıb. Bu münasibətlə qonşu Türkiyədə kütləvi endirim aksiyalarına başlayıblar. Hər gün televizorda onlarla bu tip reklamlara rast gəlirik. Geyimdən tutmuş, ərzağa qədər.**



Maraqlıdır, Azərbaycanda vəziyyət necədir? Sahibkarlar Ramazan bayramında istehlakçıları necə sevindirməyi düşünür?

Suallara cavab tapmaq üçün redaksiyamızın ətrafında qısa bir tur elədik. Bir çox geyim, məişət əşyaları satılan dükanlarının vitrinlərində endirimlə bağlı elanlar vurulub. Əhalinin ehtiyacının daha çox ərzaq məhsullarına olduğunu nəzərə alaraq paytaxtın böyük marketlər şəbəkəsinə də baş çəkdik.

“Araz” supermarketlər şəbəkəsi mayın 28-dən başlayaraq Ramazan ayı münasibəti ilə ümumilikdə 70 addan çox gündəlik istifadə olunan məhsulların endirim kampaniyasına start verib. Lakin bu kampaniya iyunun 10-da bitir. Ramazan bayramı ilə əlaqədar xüsusi endirim kampaniyasının olub-olmaması haqda öyrənmək üçün marketlə əlaqə saxlasaq da, zəngimizə cavab verən olmadı.

“AİLƏ” supermarketin “Neftçilər” metrostansiyasının yaxınlığında yerləşən filialının administratoru Elşən bəy düşünür ki, yaxın günlərdə endirim kampaniyası ola bilər: Hazırda bu haqda dəqiq məlumatımız yoxdur. 1-2 gün ərzində məlum olacaq".

“Bolmart” supermarketdə də bayrama özəl endirimlər yoxdur. Supermarketdən verilən məlumatda deyilir ki, endirimləri mağaza təyin etmir: “Adətən şirkətlər tərəfindən edilir. Hələlik bu haqda məlumatım yoxdur. Olacaqsa, yaxın günlərdə olacaq”.

“Rahat market”in “Neftçilər” metrostansiyasının yaxınlığında yerləşən filialının xanım administratorunun sözlərinə görə, bayram endirimləri hələlik yoxdur: “Ramazan bayramı ilə əlaqədar endirimlər gələn həftədən olacaq”.

“Neptun” marketdə iyunun 15-dək davam edəcək Ramazan ayına özəl kampaniyaları var. Lakin bayrama məxsus xüsusi kampaniya hələlik yoxdur.

Gördüyünüz kimi, supermarketlərdəki vəziyyət heç də ürəkaçan deyil. Heç bir marketdə Ramazan bayramı münasibəti ilə endirim aksiyasına rast gəlmədik. Ancaq ümidimizi üzmürük. İnanırıq ki, bu yazıdan sonra daim müştərilərinə yüksək xidmət göstərmək istəyən şirkətlər bayram ərəfəsində alıcıları sevindirəcək aksiyaya başlayacaq.

❑ **Ləman MUSTAFAQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# "Azərbaycanda sahibkarlıq deyəndə daha çox məmur sahibkarlığı göz önünə gəlir"

## Əli Məsimli dayanıqlı iqtisadiyyat və sabitliyin əsas şərtindən danışdı

**Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatın qarşısında duran vacib məsələlərdən biridir. Uzun müddətdir dövlət müxtəlif yollarla bu sektorun inkişafına dəstək verməyə çalışır. Lakin hələ ki, Azərbaycanda kiçik və orta həcmli sahibkarlığın inkişafına nail olunduğunu söyləmək mümkün deyil. Bu sahədə ölkənin üzləşdiyi hansı çətinliklər var? Dünya təcrübəsindən nələri əxz etməliyik ki, kiçik və orta sahibkarlığın inkişafına nail ola bilək?**

Bu və digər suallarımıza iqtisadçı-alim, Milli Məclisin üzvü Əli Məsimlidən cavab almağa çalışdıq. Deputatla müsahibənin davamını təqdim edirik:

***(Əvvəli ötən sayımızda)***

***- Kredit məsələsində əsas çətinliklərdən biri girov təminatı tələbi ilə bağlıdır. Sizcə, bu problemi necə həll etmək olar?***

- Regionlarda girov məsələsi qaydaya salınmalıdır ki, insanlar daşınmaz əmlaklarını girov qoyub kredit götürə bilsinlər. Regionda yaşayan sahibkar kredit üçün müraciət edəndə, bir sıra hallarda ondan girov kimi Bakının yaxşı yerlərinin birində daşınmaz əmlak tələb edirlər. Həmin sahibkarın Bakının mərkəzində daşınmaz əmlakı olsaydı, 10-15 min manatlıq kreditə heç ehtiyacı olmazdı... Həmin əmlakı icarəyə verib, yetərincə gəlir götürərdi. Kiçik və orta sahibkarların maliyyə resurslarına çıxışını təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında 15 sentyabr 2017-ci il tarixli Fərmanına əsasən "Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti yaradılması sahəsində görülən işləri, bu il sentyabrın 15-də həmin fərmanın bir illik icra vəziyyətini obyektiv surətdə yoxlamaq lazımdır.

Kiçik və orta sahibkarların maliyyə resurslarına çıxışı daha çox iki mənbə - bank kreditləri və qiymətli kağızlar bazarlarına çıxış vasitəsilə təmin olunur. Azərbaycanda qiymətli kağızlar bazarı zəif inkişaf etdiyindən, kiçik və orta sahibkarların ikinci mənbədən istifadəsi yox dərəcəsindədir. Ona görə də qiymətli kağızlar bazarının inkişafı sürətləndirilməlidir. Kiçik və orta sahibkarların fəaliyyətində şəffaflıq və hesabatlılığın beynəlxalq standartlar səviyyəsinə qaldırılması, müvafiq hüquqi baza yaradılması və xarici maliyyə mənbələrinə çıxış istiqamətində səylər artırılmalıdır. Kiçik və orta sahibkarların innovativ səylərini artırmaqdan ötrü əlavə maliyyə güzəştlərinin edilməsi, eləcə də startaplar üçün zəmanətlərin verilməsi kimi təcrübələrdən biz də istifadə etməyə başlamalıyıq. Bir sözlə, bu yöndə sınaqdan yaxşı çıxmış beynəlxalq təcrübə var. Biz də yaradıcılıqla həmin təcrübədən yaxşıca yararlana bilərik.

***- Ümumiyyətlə, kiçik və orta sahibkarlığın inkişafı nə üçün lazımdır? Bu, bir ölkə üçün nə deməkdir?***

- Cavab daha məntiqli alınsın deyə ikinci sualdan başlayaq: beynəlxalq təcrübə sübut edib ki, kiçik və orta sahibkarlığın iqtisadiyyatda oynadığı rol hər baxımdan iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir. Dünya təcrübəsində kiçik və orta sahibkarlığın yüksək səviyyədə inkişaf etdiyi ölkələr daha sabit və daha dayanıqlı ölkələr sayılır.

Son onilliklərin təcrübəsi təsdiqləyir ki, kiçik və orta sahibkarlıq iqtisadi inkişafın əsas təminatçısıdır, məşğulluğun və yeniliklərin vacib mənbəyidir. Bundan əlavə, kiçik və orta sahibkarlıq orta təbəqənin formalaşması və genişlənməsinin əsas mənbəyi kimi cəmiyyətdə zəruri sabitlik təmin edərək, ölkədə həyata keçirilən mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəkənməsinin sosial bazasını genişləndirir.

İnkişaf etmiş ölkələrin çoxunda mövcud müəssisələrin 99 faizi kiçik və orta müəssisələrdir. Onların məşğulluqda payı 50-70 faiz səviyyəsində dəyişir. ÜDM istehsalında payları isə 50-60 faiz həcmindədir. Kiçik və orta sahibkarlığın vəziyyətindən danışdıqda daha çox iqtisadi inkişafın katalizatoru, hərəkətverici qüvvəsi olması amili önə çəkilsə də, burada əsas məqsəd təkcə iqtisadi artım deyil, həm də sosial rifahın davamlı surətdə yaxşılaşdırılmasıdır. Azərbaycan iqtisadiyyatının yeni mərhələsinin yaxın, orta və uzunmüddətli perspektivində kiçik və orta sahibkarlığın inkişafına dair Strateji Yol Xəritəsi hazırlanıb. Təkcə 2020-ci ilədək oradakı strateji hədəflərə nail olmaq üçün 700 milyon manat investisiya xərclənəcəyi gözlənilir ki, nəticədə ölkə iqtisadiyyatında 1,3 milyard manat əlavə dəyər və 35000-ə yaxın yeni iş yeri yaradılacaq. Həmin hədəflərin reallaşdırılması "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dair Proqram"ın hazırlanıb qəbul edilməsini; hüquqi bazanın təkmilləşdirilməsini, imkan daxilində sahibkarlıqla bağlı əsas məsələləri özündə cəmləşdirən kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsinə dair yeni qanunun qəbul edilməsini; sahibkarlığın qarşısında duran maneələrin aradan qaldırılması, kredit resurslarına əlçatanlığın artırılması, kredit faizlərinin azaldılması və ya faizlərin bir hissəsinin subsidiyalaşdırılması; vergi dərəcələrinin aşağı salınması və sair istiqamətlərdə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruri sayılır. Bu baxımdan Azərbaycanın qeyri-neft sənayesinin 3 model üzərində qurulması və inkişaf etdirilməsi üçün hər cür şərait var: Birincisi, idxalı əvəz edən sahələrin inkişafı. İkincisi, ixracyönümlü sahələrin inkişafı. Üçüncüsü, innovasiya modellərinin tətbiqi. Həmin modellərin dolğun şəkildə reallaşdırılmasından ötrü kiçik və orta sahibkarlığın inkişafının proqram, hüquqi və maliyyə təminatları gücləndirilməlidir. İdxalı əvəz edə bilən və ixracı artırmaq imkanları olan istehsal sahələrinin, xüsusən də kiçik və orta sahibkarlara güzəştli dövlət kreditlərinin ayrılmasına, ölkəyə qabaqcıl texnologiya gətirməsinə, ixrac subsidiyalarının tətbiqinə geniş meydan verilməlidir.



***- Bu gün kiçik və orta sahibkarların əsas problemləri hansı sahədədir: qanunvericilik, yoxsa qanunların icrası?***

- Əsas problem müvafiq qanunların olmamasında yox, mövcud qanunların tam gücü ilə dolğun şəkildə səmərəli işləməməsindədir. Hər yerdən əli üzüləndən sonra sahibkar özünə qarşı olan maneəni aradan qaldırmaq üçün məhkəməyə müraciət edir. Hakimlərsə bir sıra hallarda sahibkarın və qanunun yox, dövlət orqanlarının tərəfini tutur. Nəticədə ədalət prinsipi pozulur, sahibkarların bir hissəsi ağır duruma düşür, müflisləşir və sıradan çıxır. Bu ciddi problemi həll etməkdən ötrü ölkədə iqtisadi və hüquqi islahatlar genişləndirilməli və dərinləşdirilməlidir. Azərbaycanda sahibkarlıq deyəndə daha çox məmur sahibkarlığı göz önünə gəlir. Hansı obyekti soruşursan, hansısa məmurun və ya onlara yaxın adamların adı hallanır. Bəzi istisnaları çıxmaq şərtilə, həmin məmurların çoxu onlara tapşırılan dövlər qurumunu və ya sahəni necə idarə edirsə, öz biznesini də birbaşa və ya kimlərinsə vasitəsilə elə o səviyyədə də idarə edir. Bu amil perspektivi dumanlı olan, səmərəsiz iqtisadiyyatın, monopoliyanın, kölgə iqtisadiyyatının, qanundan yuxarıda duran təbəqənin yaranmasının, özbaşınalıqların və sairin əsas mənbələrindəndir. Ona görə də məmurun biznesdən ayrılmasının səmərəli mexanizmini hazırlayıb tətbiq etmək lazımdır. İslahatlar yolu ilə müstəqil və sivil prinsiplər əsasında işləyən məhkəmə sisteminin formalaşmasına nail olmaq lazımdır. Hüququn aliliyinin təmin edilməsi və qanundan yüksəkdə duran təbəqənin qanunlara riayət etməyə dəvət edilməsi istiqamətində ciddi addımlar atılmalıdır.

***- Bəs dünyada kiçik və orta sahibkarlığın inkişafı üçün hansı üsullardan istifadə edilir? Onların Azərbaycanda tətbiqi nə qədər realdır?***

- Beynəlxalq praktikada hökumətlər kiçik və orta sahibkarlığın inkişafı üçün bu sahəni iqtisadi siyasətin real prioritetlərindən birinə çevirir, xüsusi proqramlar qəbul edir və hər il həmin tədbirləri həyat keçirmək üçün böyük həcmdə maliyyə buraxır. Beynəlxalq praktikada dövlət kiçik və orta sahibkarlığın inkişafına daha çox maliyyə yardımı, zəruri infrastrukturların qurulması, konsaltinq, informasiya dəstəyi, ixraca yardım və sair bu kimi vasitələrlə dəstək verir. Müəyyən maliyyə dəstəyi və onun düzgün istifadəsi əsasında dünya ölkələrinin qabaqcıl təcrübəsini Azərbaycana gətirmək, eləcə də gənclərimizin intellektual potensialını işə salmaqla ölkədə innovativ sahibkarlığı yüksək səviyyədə inkişaf etdirmək olar. Azərbaycanda İxracın və İnnovasiyaların Təşviqi Fondu xətti ilə bu yöndə çox iş görmək olar. Dövlət müəssisələrin süni surətdə sıradan çıxarılmasının qarşısını almaq üçün kiçik müəssisələrə münasibətdə haqsız rəqabətə qarşı tədbirlər görür. Ciddi islahatlar aparmaqla bunların hər birinin yaradıcılıqla Azərbaycana tətbiqi mümkündür. Aparılan sosioloji tədqiqatların nəticələri göstərir ki, inhisarçılıq və korrupsiya, məmur müdaxilələri, sağlam rəqabət mühitinin yetərli səviyyədə olmaması, kredit resurslarının bütün sahibkarlar üçün eyni dərəcədə əlçatan olmaması, vergi yükünün ağırlığı, hüquqi-normativ baza sahəsindəki çatışmazlıqlar sahibkarlığın inkişafına mane olan amillər arasında daha ciddi xarakter daşıyır. Bütün bunlarla əlaqədar olaraq Azərbaycanda azad sahibkarlığın inkifanın genişləndirilməsi və sürətləndirilməsi bir sıra tədbirlərin həyat keçirilməsini zəruri edir.

Əvvəla, sahibkarlığa yeni nəfəs verilməsi, açılan yeni iş yerləri sayının sürətlə artması və bu sahənin iqtisadi inkişafın lokomotivinə çevrilməsindən ötrü dövlətin iqtisadiyyatda iştirakının azaldılmasına, səmərəliliyin artırılmasına və məmur sahibkarlığının aradan qaldırılmasına gətib çıxaran islahatlar həyata keçirilməlidir. İnstitusional islahatlar dərinləşdirilməli və iqtisadiyyatın liberallaşdırılması artırılmalıdır.

Sahibkarların mülkiyyət üzərində öz hüquqlarını sərbəst şəkildə tam həyata keçirmək, azad rəqabət şəraitində işləmək, istehsal etdiyi məhsulu harda istəsə satmaq və sair istiqamətlərdə qanunvericilikdə öz əksini tapmış hüquqları təmin olunmalıdır. Eyni zamanda, biznes mühiti yaxşılaşdırılmalı, kiçik və orta sahiblarlığın qarşısında duran bütün maneələr aradan qaldırılmalı, onlara real dəstək gücləndirilməlidir. Bununla yanaşı, istehsalda və idxaldakı inhisarçılıq tamamilə aradan qaldırılmalıdır.

Bütün bunlar edilərsə, Azərbaycanda dayanıqlı inkişafa, sabitliyə, əhalinin rifahının davamlı yaxşılaşmasına xidmət edən sahibkarlıq sistemi yaradıla bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**



## Günnüt xəbərdarlığı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Erməni politoloq Levon Şirinyan ötən ay Ermənistanın xarici və müdafiə nazirləri Zöhrab Mnatsakanyanla Davit Tonoyanın Naxçıvanla sərhəddə getməsini əvvəlki nazirlərə nümunə gətirmişdi. Demişdi ki, keçmiş xarici işlər naziri Edvard Nalbəndyanın aprel döyüşlərindən sonra yoxa çıxmışdı, amma təzəsi cəsarətlidir.**

Şirinyanın iddiası bununla bitməmişdi, daha uzağa gedib demişdi ki, vaxtilə Rusiyanın "türklərə verdiyi" Naxçıvanı "geri qaytarmaq"la bağlı hərəkətə keçməyin vaxtıdır. Soyadı belə türklərə məxsus olan bu erməni əbləh həyasızcasına iddia etmişdi ki, vaxtilə Naxçıvanı onlardan oğurlayıblar.

Ordumuzun Naxçıvan istiqamətindən həyata keçirdiyi uğurlu əməliyyat xəbərinin rəsmi təsdiqini oxuyanda ilk yadıma düşən Şirinyanın həmin sərsəmləməsi oldu.

Qürurverici hadisədir. Qələbələrimiz davamlı olar, İnşallah! Daha bir kəndin həsrəti bitdi. Hələ kəndlərimiz, şəhərlərimiz, rayonlarımız qalıb...

Əslində Günnüt əməliyyatı dost-düşmənə növbəti mesaj oldu. Ötən ay elə Naxçıvandan, Ali Baş Komandan səviyyəsində Ermənistana xəbərdarlıq edilmişdi. Prezident İlham Əliyev bildirmişdi ki, Azərbaycan ordusunun Naxçıvanda dislokasiya olunmuş birləşməsi ən müasir silahlarla, güclü raketlərlə silahlanıb və düşmənin istənilən həmləsinin qarşısını almağa, uğurlu əks-həmlə həyata keçirməyə qadirdir. Var olsun ordumuz, etimadı qısa zamanda doğrultdu.

Azərbaycan prezidenti 100 il əvvəl Ermənistana paytaxt kimi verilmiş Azərbaycan şəhərində oturan yadlara xatırlatmışdı ki, İrəvan Naxçıvanın ovcunun içindədir. Düşmən özünü yığışdırmaq əvəzinə, Naxçıvan istiqamətində təxribata əl atdı. Bu da nəticəsi, şükürlər olsun, sevinən tərəf bizik. Əməliyyatın nə dərəcədə mühüm əhəmiyyətə malik olduğunu demək üçün bu fakt kifayət edər: dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verəcək. Yeni Qarabağ savaşı başlayanda, bu yolla irəliləyən hərbi texnikanı Naxçıvandan məhv etmək imkanımız olacaq! Bu, həm də o deməkdir ki, Qarabağda savaş başlayanda Ermənistan bir cəbhədə döyüşməyəcək, Naxçıvan istiqamətindəki zərbələrimizə də cavab vermək məcburiyyətində qalacaq.

Nikol Paşinyan Ermənistan hökumətinin başına keçəndə bəziləri ümid edirdi ki, o, müharibə partiyasının üzvü olmadığı üçün normal yanaşma ortaya qoyacaq, bölgədə ədalətin bərpası istiqamətində addımlar atacaq. Ancaq görün özünü nə günə qoyub ki, hətta Qarabağ canisi Robert Köçəryan da Paşinyanın Qarabağ siyasətini tənqid edir.

Deputat Adil Əliyev ordumuzun Günnüt əməliyyatı zamanı şəhid olan əsgərimiz Adil Tatarovun adının əbədiləşdirilməsi ilə bağlı təklif verib, Günnüt kəndinin şəhidimizin adı ilə adlandırılmasını təklif edib. Şəhidimizin ruhunu şad edən qərar olar. Adil Tatarovun həlak olduğu yüksəkliyə də onun adı verilə bilər.

Əslində bu əks-əməliyyat Ermənistanın ifşası istiqamətində növbəti addımdır. ATƏT-in Minsk Qrupunun həmsədrləri bu həftə İrəvana gedəcəklər, Paşinyan hökuməti ilə "tanış" olmaq, yeni hökumətin Qarabağla bağlı mövqeyini öyrənmək üçün. Ancaq bu səfərlər olsa-olsa status-kvonun uzadılmasına xidmət edir, heç bir sülh gətirməyəcək. Paşinyan Qarabağla bağlı mövqeyini baş nazir seçiləndən 12 saat sonra, Qarabağa qanunsuz səfər edib, Xankəndində "danışıqlarda Dağlıq Qarabağ da iştirak etməlidir" deməklə nümayiş etdirdi. Bunun ardınca da onun komandadaşlarının Naxçıvana dil uzatmasını, daha sonra erməni ordusunun Naxçıvan istiqamətində hücuma keçməsini də əlavə etmək lazımdır.

Normalda həmsədrlər Ermənistan XİN başçısı ilə görüşdə "sənin Naxçıvan tərəfdə nə işin var idi" deyə, izahat istəməlidir. Dağlıq Qarabağa iddia edən ermənilər indi də Naxçıvan iddiasındadırlar. İllərdir Azərbaycanla Ermənistan arasında bərabərlik işarəsi qoyan beynəlxalq güclər Naxçıvan iddialarını, işğalçının bu istiqamətdə təxribatını da sükutla qarşılayır.

Serj Sərkisyanı Lələtəpə əməliyyatı yıxdı. Onu əvəzləyən Paşinyan da Günnüt zərbə - xəbərdarlığını aldı. Ritorikanı dəyişməsə, "gözü çıxmış qardaş"ından dərs almasa, davamı mütləq gələcək. Yenə də Moskvaya gedir. Görəsən, "ağası" nə deyəcək?..

# "Koroğlu" MMC-nin daha bir işçisi intihara hazırlaşır - şok gəlişmə

## Şirkət ətrafında qalmaqal böyüyür; ictimai vəkil: "Rəhbərliyin əməlləri mütəşəkkil cinayətkar dəstənin fəaliyyətindən fərqlənmir..."

**İctimai vəkil Samir Zeynalov "Koroğlu" MMC-də baş verən cinayətlər silsiləsi haqda dosyenin ardından şirkətin daha bir işçisinin özünü öldürəcəyi haqda məlumat yayıb. Bu günə qədər şirkətin 10-a yaxın işçisi intihar edib. İctimai vəkil iddia edir ki, bu intiharlarla şirkətdə işçilərə qarşı sərgilənən son dərəcə sərt, bütün qanunları aşan münasibətlər arasında birbaşa əlaqə var. Samir Zeynalov şirkətin daha bir işçisinin intihar həddində olduğunu açıqlayıb.**

Onun dediklərindən sitat: "Artıq şübhə yoxdur ki, mütəşəkkil cinayətkar dəstə psixologiyası ilə fəaliyyət göstərən "Koroğlu" MMC baş verən ciddi qanun pozuntularının gedişatında növbəti qurbanını qara yaddaşlara həkk etdirməkdə israrlı və sevinclidir. Şirkətin sabiq əməkdaşı, nümayəndəsi olduğum şəxs Rauf Əliyev 1 il 4 aydır davam edən qanunsuz mühakimə səbəbindən intihar etmək həddinə çatıb. O, özünü asmaq istəyir.

365 günü aşan lüzumsuz, heç bir mötəbər sübuta əsaslanmayan, həyati əhəmiyyət kəsb edən vəsatətləri təmin etməyən Bakı Ağır Cinayətlər Məhkəməsi onun haqqında "zərərçəkmiş" statusunda tanınan "Koroğlu" MMC tərəfindən irəli sürülən vəsatət əsasında qərəzli və qanunsuz olmaqla axtarış elanına qərar verib! Barəsində həbs-qəti imkan tədbiri tətbiq edib! Ağlasığmazdır ki, davamlı olaraq lüzumsuz məhkəmə proseslərində iştirak edən, məhkəmə baxışları ərəfəsində səhhəti ilə bağlı keçdiyi stress və gərginliklərdən dolayı ciddi psixi pozuntular yaşaması ilə bağlı stasionar və ambulator qaydada müalicə alan, təqsiri onsuzda sübuta yetirilməyən Rauf Əliyev barəsində hakim Mahmud Ağalorov tərəfindən həbs-qəti imkan tədbirinin tətbiqi məqsədəmüvafiq zərurət hesab edilib. Görəsən niyə cinayət kollegiyası tərəfindən məhkəmə baxışı müddətincə obyektiv məhkəmə araşdırması və ədalətli mühakimə naminə mövcud məhkəmə-psixiatriya ekspertizası həyata keçirilmədən onun barəsində belə qənaətə gəlmək mümkün oldu?!

Görəsən niyə, məhkəmə hakimiyyətimizin təmsilçiləri "Koroğlu" MMC-in zorakı fəaliyyəti və qondarma ittihamına belə pozitiv və susqun mövqeydə dayanırlar?! Niyə, məhkəmə baxışı prosesində dövlət ittihamçısının müşavirə otağından çıxmasına möhtərəm hakimlərimiz qeyri-hüquqi konteksdən dözümlü yanaşırlar?!

Görəsən niyə, qəbul edilən son qərarın qeyri-hüquqi olması ilə bağlı məhkəməyə bu gün özünü öldürmək həddinə çatan Rauf Əliyev tərəfindən göndərilən teleqramlar, daxil olan ərizələr baxılmamış qalır?! Məgər Rauf Əliyev vətən xainidir?! Məgər doğrudanmı o ona qarşı irəli sürülən ittiham üzrə cinayət tərkibinin öz əməllərində yer almasına həssas yanaşıb?! Əgər elədirsə, haradadır, ittihamı qanuniləşdirən mötəbər sübutlar?!

Haradadır, istintaqa təqdim edilən saxta qaimələrin 2048 ədədində Rauf Əliyevin imzası?! Yoxdur! Nə imzalar var, nə də ki, ittihamı qanuniləşdirən mötəbər sübutlar. Belə çıxır ki, ona qarşı irəli sürülən ittihamın əsas istinad mənbəyi ibtidai araşdırmaya prosesual rəhbərliyi həyata keçirən Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqi Rafail Şahvələdovun "sən öl"ü kəlməsidir. Belə çıxır ki, Rauf Əliyevə qarşı irəli sürülən qondarma ittihamın istinad subyekti gözəgörünməz ağsaqqaldır. Axı biz hüquqi dövlətdə yaşayırıq. Şübhəsiz ki, kimliyindən asılı olmayaraq heç kim bu faktı inkar etmək niyyətində olmaq istəməz. Bəs o zaman hanı, Rauf Əliyevə qarşı qanuni mühakimə, ədalət, məhkəmədə müdafiə hüququnun təmini, onun məhkəmə-kargüzarlıq işinə dair rəsmi məlumatlandırılması ilə bağlı məhkəməyə dəvət olunması faktını təsdiq edən itməz gerçəklik?! Təqsiri sübuta yetirilmədən qanunsuz mühakiməyə məruz qalan Rauf Əliyevin hazırkı ürəkdağlayan durumu sadəcə, dəhşətdir. Belə situasiyanın hüquqi dövlətdə gerçəkləşməsi faktı dözülməzdir. İctimai vəkil olaraq gecikmədən Rauf Əliyevin normal həyata qayıtması naminə məhkəmədən ədalət tələb edirəm".

İctimai vəkil hesab edir ki, "Koroğlu" MMC rəhbərliyinin mütəşəkkil cinayətkar dəstənin fəaliyyətindən fərqlənməyən əməlləri haqda qanuna müvafiq ciddi tədbirlər görülməsinin vaxtı çoxdan çatıb: "Çünki çoxdandır ki, şirkət rəhbərliyi tərəfindən qanunsuz hesablanmış borclara məhkum edilmiş şirkətin sabiq işçilərinə qarşı qeyri-qanuni əməllər; döymə, şantaj, əxlaqa zidd videolar çəkməklə rüsvay etmə, iplə boğma, özünü öldürmə həddinə çatdırma, qanunsuz azadlıqdan məhrum etmə, girov saxlama, soyuq alətlər vasitəsilə işgəncələr vermə və hədə-qorxu yolu ilə tələb etmə kimi cinayət tərkibli tüküpərdən olaylar bu günə qədər cəzasız qalmaqdadır. Bu cəzasızlıq tendesiyasının nəticəsidir ki, hələ də şirkətin ağlasığmaz ittihamlarına düçar olmuş gənclər var və onlar hazırda köməyə möhtacdırlar".

Samir Zeynalov qeyd edir ki, şirkət rəhbərliyi mütəmadi olaraq əvvəllər gerçəkləşdirdiyi anti-milli və qanunsuz əməli olaylarla bağlı onları ciddi şəkildə qorxutmağa dair əməyini əsirgəməyib. İctimai vəkil Rauf Əliyevə qədər intihar etmiş əməkdaşları haqda bəhs edərkən deyib: "Bu gün 2 övladı atasız qalan, şirkətin sabiq işçisi Xəyyam Vüsal oğlu Nağıyev ona qarşı zorakılıqla irəli sürülən 10 min manat qondarma borc ittihamının nəticəsində 05.12.2011-ci ildə özünü asaraq dünyasını dəyişib. Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanılmayıb. Nəticədə 2 il sonra növbəti intihar faktı gerçəkləşib. İsmayıllı rayonun Aşağıbaş kənd sakini, 1990-cı il təvəllüdlü, şirkətin satış nümayəndəsi olmuş Tofiq Adıgözəlov yaşadığı evin həyətində özünü asaraq canına qıyıb. T.Adıgözəlov intihar etməzdən öncə facebook səhifəsində son statusunda həyatından narazı olduğu gizlətməyib: "Bu həyat çox haqsızdır; çünki pulu, varı, dövləti olana üstünlük verirlər".

O, şirkətdə borc köləliyi, işgəncə və əsir saxlama kimi halların olduğunu, bu haqda hüquq-mühafizə orqanlarına məlumat verildiyini açıqlayıb. Şirkətin işçilərindən biri olan Namiq Məmmədovun başına gələnləri onun dilindən söyləyib: "2009-cu ildə dekabrın 1-dən firma tərəfindən Şirvan və ona yaxın bölgələrə göndərilmişəm. Mənə verilən tapşırığı vaxtında yerinə yetirirdim. Lakin 2010-cu il aprel-avqust aylarında Kür-Araz çaylarının daşması ilə əlaqədar həmin ərazilərə verilən malların pulunu ala bilmədim. Təhvil verdiyim mallar daşqın altında qalmışdı. 2010-cu il avqustun 23-ü bölgə müdiri Ələddin Hüseynov avqustun 24-ü saat 10-da MMC-nin direktoru Tahir Əliyevin yanında olmağımı söylədi. Dediyi vaxtda firmada oldum. Qapıda məni şirkətin təftişinin rəisi Ayaz və onun müavini Emin Babaşov gözləyirdi. Emin mənə heç bir söz demədən sillə vurdu. Sonra Ayazla Emin məni sürüyərək təftişin otağında qəddarcasına döydülər. Emin qənd qabını başıma elə zərbə ilə vurdu ki, huşumu itirib yerə yıxıldım. Onlar məni vurmalarına davam ediblər. Mənim paltarlarımı çıxardaraq (alt paltarlarımı da) stolun üstünə lüt uzandıraraq videoya çəkiblər. Mən ayıldıqdan sonra şirkətin direktoru Tahir Əliyev mənə baxaraq istehza ilə dedi: "Mən naxçıvanlıyam, Prezident Administrasiyası da, Prokurorluq da mənim əlimdədir. Mən istədiyim adamın başına oyun açaram".

"Koroğlu" MMC-də baş verən qanunsuzluqlarla bağlı mətbuatda kifayət qədər yazılar dərc olunub. Şirkət rəsmiləri ittihamlara cavab vermək məsuliyyətindən yayınır. Hüquq-mühafizə orqanları isə şirkətdə baş verən qanunsuzluqlar haqda məlumatları araşdırmağa tələsmirlər.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "Qubanın icra başçısı var idi, işlədiyi dövrdə daşı daş üstə qoymadı"

## Vahid Əhmədov: "Bu sistemə diqqəti artırmağı Azərbaycan dövlətindən, hökumətindən bir neçə dəfə xahiş etmişəm, bir daha cənab prezidentdən xahiş edirəm"

**"Baxış bucağı"**

**Bu həftə Azərbaycanın söz sahibi olduğu daha bir beynəlxalq əhəmiyyətli nəhəng layihənin - Trans-Anadolu qaz kəmərinin (TANAP) açılış mərasimi keçiriləcək. "Enerjinin İpək Yolu" adlandırılan layihənin iyunun 12-də Türkiyədə, Əskişəhər Kompressor və Ölçü Stansiyasında keçiriləcək açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Georgi Marqvelaşvili iştirak edəcəklər.**

Deputat, Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bu layihəni "21-ci əsrin müqaviləsi" adlandırır. Elə iqtisadçı deputatla müsahibəmizdə əvvəlcə bu layihənin önəmindən danışdıq, digər mövzulardan da bəhs etdik.

***- Vahid bəy, sabah açılış mərasimi keçiriləcək TANAP layihəsinin önəmi barədə nə deyə bilərsiniz?***

- Bu, Azərbaycan üçün, həmçinin Avropa dövlətləri üçün də çox önəmli layihədir. Ona görə də bu layihəyə diqqət həddən artıq böyükdür. 1994-cü ilin sentyabrında imzalanan əsrin müqaviləsi 20-ci əsrin müqaviləsi olduğu kimi, bu da 21-ci əsrin müqaviləsidir. Bu layihəyə qoyulan sərmayənin ümumi məbləği 40 milyard dollardır. 2020-ci ildə tam istifadəyə veriləndə bu kəmər vasitəsilə 31 milyard kubmetrə yaxın qaz ixrac olunacaq. Bu kəmərə hətta Türkmənistanın qoşulma ehtimalı var. Bununla bağlı danışıqlar da gedir ki, Xəzər dənizinin dibi vasitəsilə kəmər çəkilsin. Özü də Avropa dövlətləri üçün böyük əhəmiyyət kəsb edən bu layihəni ABŞ dövləti də müdafiə edir. Neft-qaz sərgisinə gələn qonaqlar da bu layihənin əhəmiyyətindən danışdılar. Əvvəllər bəzi dövlətlər, xüsusilə də Rusiya bu layihəni manea sayırdı. İndi də müəyyən qədər bu mövqelər var. Çünki bu, Avropaya alternativ qaz layihəsi hesab olunmalıdır. Çünki hazırda Avropaya qazı əsasən Rusiya ixrac edir. Onlar istəyirlər ki, biz qazımızı Rusiya vasitəsilə bazara çıxaraq. Amma ölkə başçısı bütün təzyiqlərə, təkidlərə baxmayaraq, Gürcüstan-Türkiyə vasitəsilə Azərbaycan qazının Avropaya çıxarılması ilə bağlı çox ciddi siyasi qərar verdi. Artıq kəmərin müəyyən hissəsi çəkilib, ciddi maliyyə problemləri yoxdur, yardımlar var, layihəni müdafiə edənlər həddən artıq çoxdur. Bu, həm siyasi, həm iqtisadi cəhətdən Azərbaycan üçün önəmlidir. Birincisi, iqtisadi cəhətdən ölkəmizə əlavə dividentlər gətirəcək, Azərbaycanın iqtisadi mövqeyi daha da möhkəmlənəcək. İkincisi də iri dövlətlər bu layihənin çəkilməsində maraqlıdır. Belə layihələr stabillik olan ölkələrdə həyata keçirilir. Azərbaycanın müstəqilliyinin qorunub-saxlanması daimi olması üçün belə layihələr böyük əhəmiyyət kəsb edir. "Əsrin müqaviləsi"ndən sonra 30-a yaxın layihələr reallaşıb və bu, davam edəcək. İndi qaz layihəsi, TANAP-TAP layihəsi reallaşdırılır. Sonra ola bilər digər layihələr də reallaşsın. Azərbaycan nəinki bölgə, hətta Avropa üçün nəqliyyat mərkəzinə çevrilir. Burada logistika mərkəzi yaradılır. Çox böyük işlər görülür. Ona görə də qısqanclıq çox böyükdür. Azərbaycanda olan inkişafı bir çox dövlətlərin, bəzi qonşuların gözü götürmür. Həmişə istəyiblər ki, Azərbaycan müstəmləkə şəklində olsun. Amma artıq Azərbaycan müstəqil dövlətdir, kifayət qədər gücü, güclü ordusu var, iqtisadi cəhətdən ciddi problemi yoxdur, 45 milyarda yaxın ehtiyatımız var. Bütün bunlar Azərbaycanın müstəqilliyi üçün qarant olan amillərdəndir. Gözü götürməyən dövlətlər həmişə olub, indi də var. Necə ki, SSRİ-ni bərpa etməklə bağlı çağırışlar səslənir, addımlar atılır. Açığı, elə bizim ölkəmizdə də son vaxtlar bəzi çıxışlar olur. O çıxışlar mənim heç xoşuma gəlmir. Rusiya böyük dövlətdir, amma biz bu dövlətlə də strateji müttəfiqik. Biz heç vaxt onların maraqlarına toxunan addımlar atmırıq. Amma müstəqil dövlət kimi öz siyasətimiz var. Bu siyasəti də cənab prezident müəyyən edir, aparır. Kiminsə xoşuna gəlməyə bilər, amma çox uğurlu siyasət yürüdülür. Düzdür, son vaxtlar müəyyən tələtümlər yaratmaq istəyirlər. Son vaxtlar İtaliya dövləti bununla əlaqədar müəyyən addımlar atmaq istəyir. Amma məncə, məsələ yoluna qoyulacaq.

***- İtaliyadakı etirazlarda "Rusiya izi"nin olması barədə iddialar səslənir.***

- Hiss olunur. Çünki İtaliyada hakimiyyətə gələn yeni qüvvələrlə Rusiya hakimiyyəti arasında müəyyən isti münasibətlər var. Amma bu layihə reallaşacaq. "7-lər"in görüşü olub, hansı qərar verildiyindən xəbərim yoxdur. Lakin məsələnin müsbət sonluqla bitəcəyinə əminəm. Vaxtilə Bakı-Qars dəmir yolu çəkiləndə ortaya problemlər çıxmışdı. Bu layihənin həyata keçirilməsini istəmirdilər. Hətta ABŞ-dakı erməni yönümlü konqresmenlər bu layihəyə qarşı məsələ qaldırmışdılar. Amma layihə reallaşdı, hazırda dəmir yolu fəaliyyətdədir.

***- Bu da faktdır ki, Azərbaycanın hərbi uğurlarını daha çox gözləyirik. Azərbaycan ordusunun Naxçıvan istiqamətindən Ermənistanın nəzarətində olan ərazilərimizi geri alması xəbərini siz necə qarşıladınız?***

- Çox sevindirici xəbər oldu. Bu, təxminən aprel hadisələrindəki qazandığımız uğurlara bənzər tarixi hadisədir. Fakt budur ki, 11 min kv km ərazi nəzarət altına alınıb, 80 faizi də əkin sahələridir və əhali o torpaqlardan istifadə edəcək. Naxçıvan camaatının o ərazini necə sevinclə ziyarət etməsini müşahidə etdik. Yavaş-yavaş məsələlər öz həllini tapacaq. Beynəlxalq aləm də anlayır ki, Ermənistanın işğalına son qoyulmasa, bölgədə vəziyyət hər an gərginləşə bilər. Əgər Ermənistan dövləti mövcudluğunu davam etdirmək istəyirsə, mütləq torpaqları azad edib, Azərbaycan dövləti ilə normal münasibət qurmalıdır.

***- Rusiyanın bu hadisələrə soyuqqanlı yanaşması da maraqlıdır...***

- Mən belə başa düşürəm ki, artıq Rusiya da bu hadisələrdən bezib. Rusiyanın özünün bu dəqiqə beynəlxalq aləmdə ciddi problemləri var. O, özünə yaxın dövlətlər axtarır, Azərbaycan kimi dövləti əldən buraxmaq da istəmir. Amma bilir ki, Azərbaycanın özünün xarici siyasət kursu var, o istiqamətdə fəaliyyət göstərir. Ona görə də çalışır ki, münasibətlər yaxşı olsun. Ermənistanda nə var? İqtisadiyyatı pis vəziyyətdə. Hakimiyyətə gələn Paşinyan qərbyönümlüləri ətrafına toplayır. Çünki düşünürlər ki, sabah Rusiya bölgədə təklənə bilər. Rusiya da bunların hamısını yaxşı anlayır. Bu ölkə də başa düşür ki, Azərbaycan gec-tez torpaqlarını geri alacaq. Ona görə də belə hadisələr baş verəndə mövqe bildirməyə tələsmirlər. Amma mən belə hesab edirəm ki, artıq Azərbaycan torpaqlarını geri qaytarmağın vaxtı çatıb. Bunun siyasi yolla həllini heç vaxt görməmişəm, indi də görmürəm. Necə ki, Fələstin torpaqlarının azadlığı ilə bağlı gedən mübarizə nəticə vermədi. Amma gec-tez onsuz da proseslər müharibəyə gətirib çıxaracaq, Azərbaycan öz torpaqlarını azad etməlidir. Getdikcə o gün yaxınlaşır. Ona görə də biz hər dəqiqədən səmərəli istifadə edib ordunu gücləndirməliyik ki, sabah problemimiz olmasın.



**"Torpaqlarımızı geri qaytarmağın vaxtı çatıb"**

***- Vahid müəllim, yeni nazirlərin təyinatından müəyyən vaxt keçib. Onların fəaliyyəti barədə nə demək olar?***

- Ataların məsəli var, "cücəni payızda sayarlar". Hələ qoy bir illik fəaliyyətləri tamam olsun, ilə yekun vuraq, baxaq, görək göstəriciləri hansı səviyyədədir. O zaman demək olar ki, bu insanlar vəzifəyə layiqdirlər, ya yox? Yaxud Azərbaycanın iqtisadi, siyasi inkişafında hansı müsbət rolları var. Məni narahat edən bir məsələ var, nazirlər kadr dəyişikliyinə çox böyük üstünlük verirlər. Başa düşürəm, hər gələn nazir istəyir ki, ətrafında yaxın adamı olsun, sabah ciddi problemlə üzləşməsin. Allaha şükür ki, bizdə nazir 15-20 il işləyir. Yeni 5 il işləsəydi, əlbəttə, belə hallar baş verməzdi. Amma elə kadrlar var ki, onları qoruyub-saxlamaq lazımdır. Əgər köhnə nazirlərin zamanında səhv edən kadrlar varsa, təbii ki, onları təmizləmək lazımdır. Amma cavan kadrlarla yanaşı, yaşlı kadrların da təcrübəsindən istifadə etmək lazımdır. Çünki onların çox böyük təcrübəsi var. Təyin olunan nazirlərin hamısı ilə mənim münasibətim, əlaqəm var, savadlı kadrlardır. Lakin təcrübə cəhətdən müəyyən qədər problemləri var. Ona görə də təcrübəli kadrlardan istifadə etməlidirlər ki, iqtisadiyyatımızın digər sahələrində ciddi problemlər yaranmasın.

***- Baş nazir Novruz Məmmədovla necə, ünsiyyətiniz olub?***

- Bir dəfə. Təyin olunanda təbrik etmişəm, ondan sonra olmayıb. Ümumiyyətlə, hiss edirəm ki, nazirlər özləri hələlik ünsiyyətdən qaçırlar. Çünki ciddi kadr dəyişikliyi ilə məşğuldurlar. Həm də cənab prezident onların qarşısında ciddi məsələlər qoyub. Həm işlərində şəffaflığın təmin olunması, həm iqtisadi inkişafla əlaqədar, həm də 2016-cı ildə qəbul edilmiş Strateji Yol Xəritəsi ilə əlaqədar olaraq. Ümumiyyətlə, qarşıda mühüm vəzifələr var. Bu mənada nazirlərin işləri çoxdur. Ona görə də hələlik onlara imkan vermək lazımdır ki, öz vəzifələrini yerinə yetirib, nazirliklərdəki problemlərin həllinə nail olsunlar.

***- Bir sıra icra başçıları vəzifələrindən azad edildi. Bu prosesi necə qiymətləndirirsiniz?***

- Bu, gözlənilən idi. Məsələn, Qubanın icra başçısı var idi, işlədiyi dövrdə daşı daş üstə qoymadı. Çox ciddi nöqsanları var idi, mən rəhbərliyə bir neçə dəfə dedim ki, problem yarana bilər. Ona görə də rəhbərlik qərar qəbul etdi. İndi Qubaya təzə icra başçısı gəlib, Ziyəddin Əliyev. Çox böyük işlər görür, perspektiv planları da çox böyükdür. Əhali ilə görüşür, camaat da razılıq edir. Qusarın, Xaçmazın icra başçıları da əhali ilə təmasda olan şəxslərdir. Yeni icra başçıları böyük rol oynayır. İcra başçıları çalışmalıdırlar ki, rayonda iş yeri açılsın, investisiyalar qoyulsun. Onlar mərkəzi aparatlarla, nazirliklərlə işləməlidirlər.

***- Bəs, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyinatın olmaması, sizcə, nə ilə bağlıdır?***

- Yəqin, təyin olunacaq. Ola bilər cənab prezidentin özünün fikri var. Mən çox istərdim ki, Bakıda mer seçkisi keçirilsin və Bakı böyük şəhər bələdiyyəsi olsun. Çünki Bakı artıq elə inkişaf mərhələsinə gəlib çatıb ki, buna böyük ehtiyac var. Bundan başqa, merin seçki yolu ilə seçilməsinə getmək olar. Yəqin ki, bu məsələlərə dövlətimiz tərəfindən baxılır. Cənab prezident elə bir şəxsi təyin etmək istəyir ki, Bakının gözəlliyi, inkişafı davamlı olsun.

***- Növbədənkənar parlament seçkisinə gedilməsi real görünürmü?***

- Vallah, mən onun reallığına inanmıram. Nə əhəmiyyəti var? Parlament normal fəaliyyət göstərir. Düzdür, 6 yer boşalıb. İstəsələr, o yerlərə əlavə seçkilər keçirilə bilər. Amma parlamentdə elə bir ciddi problem yox, ya qarşıdurma yoxdur. Parlament Azərbaycan dövlətinin siyasətini müdafiə edir, iqtisadiyyatımızın inkişafı üçün əlindən gələni edir, bu istiqamətdə bütün qanunları qəbul edir. Növbədənkənar parlament seçkilərinə o vaxt gedirlər ki, hökumətlə, dövlətlə parlament arasında ciddi qarşıdurmalar yaranar, fikirayrılıqları olur. Bu fikirayrılıqları yoxdur. Ona görə də mən növbədənkənar seçkiyə ehtiyac görmürəm.

***- Bank kreditləri, ümumiyyətlə, banklardakı vəziyyətlə bağlı təklifləriniz olmuşdu. Bu məsələ ilə bağlı yenilik varmı?***

- Məni və Əli Məsimlini narahat edən əsas məsələ bank sistemindəki məsələdir. 2017-ci ildə biz 0,2 faiz ümumi daxili məhsul əldə edə bildik. Amma bank sistemi normal inkişaf etsəydi, Azərbaycan iqtisadiyyatına yüksək səviyyədə investisiya qoya bilsəydik, bu, 2-3 faiz səviyyəsində ola bilərdi. Təsəvvür edin ki, 2017-ci ildə qoyulan investisiya 25 faiz azaldı. Yəni bank sistemi bu gün Azərbaycan iqtisadiyyatı ilə ayaqlaşa bilmir. Yadınıza gəlirsə, 2016-cı ildə, hökumətin iclasında cənab prezident qeyd etdi ki, Azərbaycan iqtisadiyyatına ən çox ziyan vuran bank sistemi olub. Bu, tamamilə belədir. Bu gün də bank sistemində sağlamlaşdırma siyasəti çox zəif gedir. Bu işi qurtarmaq lazımdır. Bank sistemi ilə çox ciddi məşğul olmağa ehtiyac var. İstər Mərkəzi Bank olsun, istər Maliyyə Bazarlarına Nəzarət Palatası, istər digər cavabdeh qurumlar olsun, bank sistemində vəziyyəti düzəltməlidirlər. Azərbaycanda 42 bankdan 30-u qalıb. Bu bankların kapitallaşmasını həll etmək lazımdır. Bunun yolları da var. Bu yolları biz göstərmişik, demişik, xahiş etmişik ki, bu məsələlərə baxsınlar. Dollarla olan kreditlərlə əlaqədar 14 səhifəlik təkliflərimiz oldu. Çox təəssüflər olsun ki, bunlar vaxtlı-vaxtında həll edilmədiyi üçün məsələlər müsbət həllini tapmır. Amma bu bank sistemi normal işləsə, Azərbaycanda insanlara aşağı faizlə kreditlər verilsə, ölkədə iqtisadiyyat daha ciddi şəkildə inkişaf edə bilər. Yəni bu sistemə diqqəti artırmağı Azərbaycan dövlətindən, hökumətindən bir neçə dəfə xahiş etmişəm, bir daha cənab prezidentdən xahiş edirəm.

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Lüksemburq-Samux əlaqələrinin kədərli sonu

**Zamin HACI**
zaminhaci@gmail.com

"Məcnun deyə tən edər xəlayiq,
Məcnunə mənim qızım nə layiq?"

*(Füzuli)*

**Bu yaxında deputatlar bəzi kəndlərimizin adını dəyişdirmək haqda qanun qayırdılar, orada mənim təəccübümə səbəb bir kənd adı var idi: Samux rayonunun Lüksemburq kəndi. İndən belə bu obamız Köbər adlanacaqmış. "Köbər" bizim dildə "dik yer, hündür torpaq qalağı" mənasını verirmiş, etiraf edim ki, şəxsən mən bunu bilmirdim, lüğətdən öyrəndim. Böyük ehtimal nəsə dialekt sözüdür. (Qabarmaq sözünə səslənmə və mənaca çox oxşayır). Bəs bu Lüksemburq-un günahı nə idi ki, deputatlarımızın xoşuna gəlməmişdi?**

İlk baxışdan adam düşünür ki, yəqin bu kənd Avropadakı Lüksemburq dövlətinin adını daşıyırmış. Ora isə cırtdan dövlət olmasına baxmayaraq dünyanın ən yaxşı dövlətlərindən biri sayılır. Beynəlxalq maliyyə mərkəzidir, Avropanın bir çox qurumlarının baş ofisi məhz oradadır. İndi pis olardımı bizim bir obamız da yalandan da olsa özünü Lüksemburq kimi aparsın? " -Haralısan? - Lüksemburq kəndindən", "Lüksemburqda qoyun otaran Məmməd kişini canavar yemişdir" - gör nə qədər mənalı səslənərmiş. Heyf, daha biz bu mənalardan məhrum olduq, Avropaya açılan bir qapımız, bir fortuçkamız da beləcə qıfıllandı.

Burada bir haşiyə çıxaraq məni çoxdan narahat edən temanı yazmaq istəyirəm. Əgər fikir vermisinizsə, Avropanın ora-burasında çoxlu sayda cırtdan dövlətlər vardır. Onlardan saya bilərik Andorra, San-Marino, Lixtenşteyn, Monako, Vatikan, Malta, Malta ordeni (bu Maltadan ayrı bir zaddır, Romada hardasa bir binada yerləşən əcaib dövlətcikdir) və sairəni. O cümlədən də bizim bu Lüksemburq. Bunlar hərəsi bəlkə bizim Biləcəri qəsəbəsi boyda ərazi tutur, ancaq bayraqları, himnləri-filanı olan müstəqil dövlətlərdir. Heç kimin işinə qarışmadan yaşayırlar özləri üçün, eyni zamanda başqaları da bunların işinə qarışmır. Bax, elə məni bir qafqazlı olaraq düşündürən də bundan əvvəlki cümlənin ikinci hissəsidir: nə üçün heç kim bunların işinə qarışmır? Niyə bunların böyür-başındakı Fransa, Almaniya, İspaniya və sairə basıb bunları şil-küt edib ərazilərini tutmurlar? Əcəb işdir, vallah. Kimsə sənin böyründə müstəqillik elan edir, sən isə buna dözürsən. Onlardan biri, vaxtilə bizdə adına saxta universitet açılan San Marino dövləti isə hətta İtaliyanın düz içindədir, dili italyan dilidir, ancaq ayrı dövlətdir. İtalyanların isə qəti ağlına gəlmir ki, qoşunu basıb San Marino camaatına İtaliya himni oxutdursunlar.

Əşşi, nə bilim vallah, dünyadır də. Dəlixana kimi bir şeydir. Hamı vətənin qədrini bilməz ki. Odur, Tramp Fransada Makronun əlini salamlaşma mərasimində az qala qırmışdı, bu həftə isə Makron Kanadada "Yeddilər" sammiti zamanı qisasını aldı, Trampın əlini elə sıxdı ki, barmağının izi qalmışdı - bütün dünya kanalları o izi göstərdilər. Belə anlarda bir ata sözümüz yada düşür: "Ağıllınız kimdir? Qabaqda gedən zəncirli". Qayıdaq Samuxa, "öz qoyunlarımızın yanına" - fransız məsəlində deyilən kimi.

Hərçənd, dəli şeytan deyir ki, kəndin adı Lüksemburq dövlətindən yox, məşhur kommunist zənənlərdən biri Roza Lüksemburq-un soyadından qayırılıbmış. Köhnə kişilərin, həmçinin 8 mart aşiqlərinin yadında olar bu tünbətünün qızı. Çünki deyilənə görə 8 mart bəlasını dünyanın boğazına keçirdənlərdən biri məhz bu Roza Lüksemburq olmuşdur. Sovet vaxtı belə tiplərin adın, familiyasını hər yerə yapışdırırdılar. Şmidt zavodu, Şors küçəsi, Şaumyan rayonu və sairə. (Axırıncını çox sevdiyimiz üçün hətta 2 rayona adını qoymuşduq, biri Şaumyan kənd rayonu adlanırdı, o biri Bakının Şaumyan rayonu. Gör nə qədər manqurt olmuşuq, adam xəcalətindən xarakiri eləmək istəyir). Çoxu keçmiş kommunist və komsomolçu olan deputatlarımız da dərhal Lüksemburq söhbətini tutmuşlar və kəndin adını dəyişməyə qərar vermişlər.

Xeyirli, uğurlu olsun, nə deyə bilərik. Köbər kəndi də adına uyğun zirvələrə qalxsın, həmişə hündürdə olsun. Bizim deputatxanaya baxanda hələ yaxşı qurtarıblar, kefləri istəsə kəndi regionların inkişaf planına uyğun olaraq "Gəbər" də adlandıra bilərdilər, kimin səsi çıxardı? Odur, bir icra başçısını təzəcə qovublar, bütün media bunun rayonu yeyib-dağıtdığından yazır, lakin bir adamın da ağlına gəlmir ki, bunu başçı qoyanda yemək üçün qoymuşdular. Adamın soyadına baxın: "YEDİyarov" (Fərqləndirmə mənimdir - Z.H.). Ta bundan artıq sizə necə başa salaydılar? Yaxşı əməlləri xatırlanası adam qoysaydılar soyadı Yadigarov olanı seçərdilər da bə.

# "Qaz müharibəsi" yeni mərhələdə...

**İyunun 12-də qardaş Türkiyədə region üçün çox mühüm və tarixi bir hadisə gözlənilir. 40 milyardlıq Cənub Qaz Dəhlizinin (CQD) ikinci vacib seqmenti - TANAP sabah işə salınacaq. Xəbər verildiyi kimi, Azərbaycan prezidenti İlham Əliyev təntənəli açılış töreninə qatılmaq üçün qardaş ölkəyə səfər edəcək.**




# Azərbaycan və Türkiyə "yeni xəritə" cızır - tarixi gün

## Sabah qardaş ölkədə TANAP-ın təntənəli açılış mərasimi olacaq; prezident İlham Əliyevin də qatılacağı törən ən çox hansı çevrələri rahatsız edir?; Səngəçalı Əskişəhərə birləşdirən dəyər

"Yeni Müsavat" arayış qismində xatırladır ki, TANAP - Trans-Anadolu Qaz Boru Kəməri təbii qazı Türkiyənin şərq sərhədindən qərb sərhədinə daşıyacaq. Dəyəri 7 milyard dollar olan kəmərin 2020-ci ildə buraxılış qabiliyyətinin ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin dövrdə TANAP-la nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. TANAP layihəsində ARDNŞ 80%, Türkiyənin BOTAŞ və TPAQ şirkətləri isə birgə 20% paya malikdir.

Qeyd edək ki, bu il mayın 29-da Səngəçalda Cənub Qaz Dəhlizinə ilkin qaz vurulub. Sabah - iyunun 12-də qaz Türkiyənin Əskişəhər yaşayış məntəqəsinə çatacaq və TANAP kəməri işə düşəcək. Açılış mərasimi elə ona görə 12 iyuna təyin edilib.

Gözlənilən hadisə ilə bağlı danışan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan TANAP-ı iki qardaş ölkənin "ortaq qürur layihəsi" adlandırıb. Eyni zamanda belə bir böyük projenin həyata keçməsində ABŞ və Avropa Birliyinin dəstəyini qeyd edib.

*****

Bəllidir ki, 12 iyun həm də Rusiya Günüdür. Başqa sözlə, bu tarixin Rusiya Günü ilə üst-üstə düşməsi əslində sırf təsadüfdür və özündə Rusiya əleyhinə hər hansı siyasi, təbliğati anlam və ya mesaj daşımır. Sabahkı hadisənin mesaj xarakterli kiməsə ən çox aidiyyəti varsa, bu da yəqin ki, belə qlobal layihələrdən kənarda saxlanılaraq daha da "izqoy dövlət" durumuna salınan Ermənistan və beynəlxalq erməni lobbisidir, onlara bağlı antitürk çevrələrdir.

Ona görə ki, Azərbaycan və Türkiyə faktiki surətdə bölgənin yeni enerji və təhlükəsizlik xəritəsini cızmaqdadır. Bu kəmər eyni zamanda iki qardaş ölkənin gücünə qarşılıqlı şəkildə güc qatacaq, onların enerji təhlükəsizliyini, ümumən milli təhlükəsizliyini və müstəqilliyini daha da möhkəmlədəcək. İki qardaş məmləkətin bölgədə söz sahibliyini və nüfuzunu, vazkeçilməz rolunu artıracaq. Xüsusən də Azərbaycanın. Təbii ki, Avropanın da enerji təhlükəsizliyi güclənmiş olacaq.

Bu mənada Türkiyədəki açılış mərasimi sırf iqtisadi deyil, həm də dostları sevindirəcək, düşmənləri məyus edəcək böyük geosiyasi hadisədir. Görünür, o üzdən CQD əleyhinə olan qüvvələr məhz bu ərəfədə, xüsusən də TANAP-ın açılış töreni ərəfəsi daha da fəallaşıb.

*****

Söhbət öncəliklə İtaliyadakı yeni koalision hökumətin CQD-nin sonuncu kəsimi, dəyəri 4.5 milyard avro olan Transadriatik Qaz Kəməri (TAP) layihəsinə qarşı tutduğu mövqedən gedir. Xəbər verildiyi kimi, yeni hökumət TAP-ın ölkə ərazisindən keçməsinin məqsədəuyğunluğu məsələsini təzədən nəzərdən keçirə biləcəyini bəyan edib.

TAP konsorsiumu isə bu arada bəyan edib ki, kəmərin İtaliya hissəsinin marşrutunun dəyişdirilməsi layihəni 4-5 il geri sala bilər. Deyildiyi kimi, kəmərin İtaliya hissəsinin tikintisinin 2020-ci ildə başa çatması və həmin ildə TANAP kəməri ilə nəql olunacaq qazın ildə 10 milyard kubmetrinin bu kəmərlə Avropaya nəqlinin başlaması planlaşdırılır. Lakin görünür, İtaliyadakı yeni hökumət kəmərin çəkilməsini ləngitməyi qarşıya məqsəd qoyub.

Müşahidəçilərə görə, bu da ən çox "Qazprom"un işinə yarayacaq. Yeri gəlmişkən, az öncə "Qazprom" Türkiyə ərazisindən "Türk axını" qaz kəmərinin Avropaya uzadılması barədə razılığa gəlib (Rusiya qazı bu kəmərlə Türkiyəyə 2019-cu ilin sonunda daxil olacaq).

*****

Bu da diqqətçəkicidir ki, İtaliya Rusiyaya qarşı sanksiyalar məsələsində Avropa Birliyində ən loyal mövqe tutan, hətta bu sanksiyaların ləğvinə çalışan, bu yöndə Rusiya üçün lobbiçilik edən dövlətdir. Bu xüsusda onun TAP-la bağlı mövqeyi Moskvanın marağına tamamilə uyğundur. Kremlin isə strateji maraqlarından biri orta və uzaq perspektivdə Avropa qaz bazarında öz inhisarçılığını saxlamaqla Qərbə qarşı qaz şantajı rıçaqını əldən verməməkdir.

Azərbaycan qazı, CQD sözsüz ki, bu inhisarçılığı azaldacaq. Bu mənada prezident V.Putinin CQD-yə pozitiv yanaşması mümkün deyil - Rusiya lideri CQD ilə bağlı ilkin olaraq müsbət fikir söyləsə də. Rusiya ən azından onun reallaşmasını yubatmağa çalışacaq ki, İtaliyanın yeni koalision hökumətinin davranışları da əslində elə buna xidmət edir. Ancaq alınacaqmı?

Yada salaq ki, Azərbaycan bundan əvvəl analoji vəziyyətlə Yunanıstanda üzləşmişdi. Yerli hökumət TAP kəməri üçün şərtlərə yenidən baxılması məsələsini qaldırmışdı və məlumatlara görə, konsorsium bəzi güzəştlərə getməklə kəmərin çəkilməsini davam etdirməyə nail olmuşdu. İndi isə İtaliyada yeni hökumət layihəni əngəlləmək xəttini seçib.

*****

Bəzi təhlilçilərə görə, İtaliyada hazırda hökumət böhranı yaşanır və yeni formalaşan hökumətin möhkəmlənmək üçün populist bəyanatlar verməsi gözləniləndir. Yəni bu bəyanatlar bir çox hallarda siyasi xarakter daşıyır və onların reallaşıb-reallaşmayacağını söyləmək mümkün deyil. İstənilən halda ümid edək ki, Azərbaycan xüsusən də CQD-nin siyasi-maliyyə sponsoru olan AB və ABŞ ilə aktiv diplomatiya aparmaqla, həmçinin, İtaliya hökuməti ilə təmasları gücləndirməklə, habelə BP şirkətinin öz nüfuz və təsirindən istifadə eləməsi sayəsində bu məkri də önləyə biləcək və kəmərin işə düşməsinin ləngiməsinə imkan verməyəcək.

Nəzərə alsaq ki, gələcəkdə CQD ilə türkmən və İran qazının nəqli də istisna edilmir, yeni kəmərin ötürücülük gücünün xeyli artacağı gözlənilir, o zaman 12 iyundan sonra Avropa qaz bazarı uğrunda mübarizənin, daha dəqiqi, "qaz müharibəsi"nin daha sərt mərhələyə keçəcəyini söyləmək mümkündür...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

**İyunun 10-da prezident İlham Əliyev Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Nikolayeviç Boçarnikovun etimadnaməsini qəbul edib. Səfir Mixail Boçarnikov fəxri qarovul dəstəsinin qarşısından keçib. Sonra Mixail Boçarnikov etimadnaməsini İlham Əliyevə təqdim edib. Ölkə başçısı səfirlə söhbət edib. Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.**



# Rusiya səfiri Bakıda işə başladı, ABŞ səfiri nə vaxt gəlir?

## Ekspert: "İrəlidəki bir neçə ayda yeni səfirin təyinatının şahidi olacağıq..."

Regionda və Azərbaycanda ciddi maraqları olan daha bir böyük dövlət -ABŞ isə hələ də Azərbaycana yeni səfir təyin etməyib. İki ay yarımdır ki, ABŞ Azərbaycanda səfirsizdir. Azərbaycanın əhəmiyyətinin artdığı deyildiyi bir vaxtda Vaşinqtonun səfir təyinatını gecikdirməsi nədəndir? Bu, ABŞ-ın Azərbaycana dolayısı ilə hansısa mesajlar çatdırması hesab oluna bilər?

Siyasi analitik Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan ABŞ-ın vacib strateji-iqtisadi tərəfdaşı, qlobal enerji təhlükəsizliyində və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan ABŞ-ın qlobal hərbi strateji, enerji stabilliyi və təhlükəsizliyində mühüm rol alan aparıcı tərəfdaşı kimi, Avropanın enerji təhlükəsizliyində və qitələrarası transmilli enerji nəqli marşrutlarında ABŞ-la eyni mövqedən çıxış edir: "Həmçinin, danılmaz fakt budur ki, Azərbaycan ABŞ-ın vacib hərbi-strateji, etibarlı iqtisadi tərəfdaşı kimi, qlobal enerji təhlükəsizliyi mövzusunda etibarlı tərəfdaşı kimi, həm də ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. ABŞ Əfqanıstandakı missiyası və Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üçün döyüş təyinatı olmayan yüklərin daşınmasında Azərbaycan hava məkanından istifadə edir. NATO-nun Əfqanıstandakı missiyası üçün nəzərdə tutulan bütün yüklərin daşınması, Şimal paylaşdırma şəbəkəsinin cənub marşrutu üzrə yüklərin 40 faizini Azərbaycanın hava məkanı və aeroportlarından istifadə etməklə həyata keçir. Azərbaycan ABŞ-a və NATO tərəfdaşlarına lojistik və tranzit yardımında hərbi yüklərin 40 %-nin daşınmasında qeyd etdiyimiz şimal paylayıcı şəbəkəsi strateji tranzit yolu, Əfqanıstandakı ABŞ hərbi heyətinin hərəkətliliyi üçün təhlükəsiz tranzit yolu olan, 2002-ci ildən Əfqanstanda ABŞ və NATO qoşunlarına qətiyyətli dəstək göstərən etibarlı və aparıcı tərəfdaşıdır: "Sırf ABŞ-ın səfir təyinatı məsələsi və onun pərdə arxası səbəbləri haqqında danışmadan öncə, münasibətlərdəki hərəkətlilik haqqında danışmaq istəyirəm. ABŞ Prezidenti Donald Trampın Azərbaycan dövlət başçısı İlham Əliyevə Azərbaycan Demokratik Respublikasının 100 illiyi münasibətilə təbrik məktubu münasibətlərin səviyyəsini qeyd edir. Tramp Azərbaycan və Birləşmiş Ştatların günümüzün mürəkkəb regional çağırışlarının həlli üçün birgə işləyərək daha sıx tərəfdaşlığı arzusunda olduğunu bildirir. Təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində əməkdaşlığımızı, habelə uzunmüddətli ticarət ələqələrimizi, enerji sahəsində illərlə davam edən əməkdaşlığımızı diqqətə alaraq, Cənub Qaz Dəhlizi vasitəsilə ilk qazın nəqli sayəsində Avropanın zəruri enerji təhlükəsizliyində alternativ enerji təminatını əldə etməsini inanılmaz bir nailiyyət kimi göstərir. Bunun müqabilində yaranan regional imkanları Dağlıq Qarabağ münaqişəsinin həlli üçün tarixi imkanlar kimi dəyərləndirir. Donald Trampın xüsusi təbrik məktubundan bir gün sonra ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bricet Brinki ölkəmizə səfər edir və Azərbaycan prezidenti İlham Əliyevin qəbulunda olur. Görüşdə yenə də Azərbaycan ilə ABŞ arasında siyasi, enerji və təhlükəsizlik sahəsində ikitərəfli əlaqələri, Cənub Qaz Dəhlizinin əhəmiyyəti və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında artan rolu müzakirə olunur. Müzakirə olunan mövzulardan biri də əlbəttə yeni səfir təyinatı və onu şərtləndirən məqamlardır.

Görüşdən iki gün sonra ABŞ Azərbaycan münasibətlərində kənar təsirlər vasitəsi ilə neqativ rol almış və rəsmi Bakının haqlı iradının ünvanı olan ABŞ Konqresinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Komissiyası müsbət bəyanat paylaşaraq Azərbaycanla münasibətlərin yüksək səviyyədə olmasını diqqətə gətirdi. Səfir təyinatı əslində o qədər çox gecikmir. İki ay yarım elə də böyük zaman deyil. Hazırda daha bir neçə ölkədə ABŞ-ın yeni səfiri təyin olunmayıb. Prosedur qaydalar mürəkkəbdir və zaman ala bilir. İrəlidəki bir neçə ayda yeni səfirin təyinatının şahidi olacağıq. Səfir təyinatının hələ həyata keçirilməməsində Azərbaycana hansısa dolayısı mesaj və ya təzyiq məqsədi güdüldüyü versiyası inandırıcı deyil. Yuxanda qeyd etdiyimizs kimi, Azərbaycan ABŞ üçün əhəmiyyətli ölkədir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Paşinyanın qalmaqallı bir ayı - ermənilər ümidlərini itirirlər

## İnqilabçı baş nazirin qısa vaxtda "qabında nə olduğu" üzə çıxdı

**Nikol Paşinyanın Ermənistanda hakimiyyətə gəlməsinin bir ayı tamam oldu. Bu bir ayda Paşinyanın davranışları, tutduğu siyasi kurs yaxın gələcək üçün proqnozlar verməyə əsaslar yaradıb.**

Siyasi analitiklər hesab edirlər ki, ilk bir ayda Paşinyanın "qabında nə olduğu" ortaya çıxmış sayıla bilər. Onun Ermənistan üçün "Saakaşvili" ola biləcəyinə ümid edən ermənilər get-gedə ümidlərini itirirlər.

Yeni baş nazir hakimiyyətə gəldikdən dərhal sonra işğal olunmuş Dağlıq Qarabağa səfər edib və separatçı rejimi tərəf kimi danışıqlar masasına əyləşdirməyə çalışması ilə yadda qalıb. Eyni zamanda, davamlı şəkildə bir-birinə zidd açıqlamaları ilə özünü gülünc vəziyyətə salmaqda davam edir.

Ekspertlərin fikrincə, ilk bir ayda bəlli oldu ki, Paşinyan da Sərkisyanın "yolunu" getməyə çalışır, ancaq təcrübəsizliyi buna imkan vermir. Paşinyan Sərkisyanın rolunu kobud və pis formada oynayır. Deməli, yaxın illərdə nə Ermənistan normal ölkəyə çevriləcək, nə erməni gənclər normal yaşamaq üçün ölkəsinə qayıdacaq, nə də Qarabağdan Ermənistana daşınan əsgər meyitlərinin ardı kəsiləcək.

Paşinyanın yüksək vəzifələrə təyin etdiyi kadrların çoxunun Qərbyönümlü gənclər olması və məxməri inqilabla hakimiyyətə gəlməsi onun Ermənistanın "Saakaşvilisi" olacağı demək deyil. Nə qədər ki, Ermənistan Azərbaycan torpaqlarından çəkilməyib Ermənistanın iqtisadiyyatı irəli gedə bilməyəcək. Hazırkı vəziyyətdə Ermənistanın iqtisadi resursları da inkişaf üçün yetərli deyil. Paşinyanın ölkə iqtisadiyyatını ayağa qaldıra biləcəyi ilk ayda aydın olmağa başlayıb. Paşinyan hökumətinin 5 illik proqramı açıqlandı. Məlum oldu ki, Sərkisyanın 10 illik hakimiyyəti dövründəki proqramından elə də fərqli deyil. Bu proqram isə son 10 ildə Ermənistanı bataqlığa salıb.

Ermənistan hazırda çox zəif bir durumdadır. Reallıq budur ki, Ermənistanda hələ də sabit hakimiyyət yoxdur, yaxın zamanlarda da sabit hakimiyyət qurulmayacaq. Ən azından növbədənkənar parlament seçkiləri keçirilməyənə qədər bu olmayacaq. Bu proseslərin içərisində Serj Sərkisyan hakimiyyəti çox ciddi müqavimət göstərir. Səhnədən gedən bu hakimiyyət yenidən iqtidara qayıtmağa cəhdlər edəcək. Demək, bundan sonra vəziyyət daha da gərginləşəcək.



Paşinyanın hakimiyyətinin ilk ayında Azərbaycan ordusu Naxçıvan istiqamətində irəlilədi. Ermənistanla sərhəddə yerləşən və 1992-ci ildən Azərbaycanın nəzarətindən çıxan Günnüt kəndi bu yaxınlarda Azərbaycan ordusunun nəzarətinə keçdi. Ümumilikdə tam 1200 hektar ərazinin, yüksəkliyin Azərbaycan silahlı qüvvələrinin nəzarətinə keçdiyi deyilir. Bu faktor da ermənilər tərəfindən inqilabçı baş nazirin aktivinə ilk ayda yazılan minuslardan biri olaraq qəbul ediləcək.

Milli Məclisin deputatı Elman Nəsirov qeyd etdi ki, inqilabdan sonrakı ilk vaxtlarda taktiki baxımdan Paşinyan özünü uduşlu vəziyyətdə hiss edə bilərdi və bu təbii idi. Çünki ilk vaxtlarda inqilab eyforiyası öz təsirini göstərirdi. Lakin qısa zamanda görünməyə başladı ki, strateji baxımdan onun məğlub səviyyəsinə enişini şərtləndirən bir sıra ciddi amillər var: "Ermənistanın və qondarma "Qarabağ rejimi"ni sistemli iflasa gətirən əsas səbəb Azərbaycan torpaqlarının işğalı faktı ilə bağlıdır. Elə bu səbəbdən də Ermənistan bumeranq effekti ilə üzləşib və Azərbaycanın iqtisadi, enerji və nəqliyyat blokadası siyasətinin hədəfindədir. Bu bir ayda göründü ki, Paşinyan bu səbəbin aradan qaldırılması və bununla da üzücü təcrid siyasətindən qurtulmaq naminə hələ ki, heç bir addım atmır. Hətta bir çox hallarda zorla hakimiyyətdən saldığı Sərkisyandan çox "Sərkisyan" olmaq istəyir. Əksini düşünənlər son günlər ərzində Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səsləndirdiyi aşağıdakı absurd fikirlərə diqqət yetirsinlər: Münaqişənin tənzimlənməsi prosesində qondarma "Dağlıq Qarabağ rejimi" tamhüquqlu tərəf kimi iştirak etməlidir. Bu, birinci addım olmalıdır;

Paşinyanın bu mövqeyi sülh danışıqlarını çıxılmaza salmaqdır. Bu isə Ermənistanın vəziyyətinin daha da ağırlaşacağı deməkdir.

Paşinyanın nonsens kimi qarşılanan bu mövqeyi müttəfiqi hesab olunan Rusiyada da narazılıq doğurub. Təsadüfi deyil ki, Rusiya Xarici İşlər Nazirliyinin departament rəisi Artyom Kojim Ermənistanın baş nazirinin bu fikirlərini "qeyri-konstruktiv mövqe" kimi qiymətləndirib. Eyni zamanda, Rusiyanın xarici işlər naziri Sergey Lavrov da "Nezavisimaya qazeta"nın müxbirinin "Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində müstəqil tərəf kimi iştirakının mümkünlüyü" ilə bağlı sualına cavab olaraq bildirib ki, bu məsələyə yalnız Ermənistan və Azərbaycan arasında razılaşma olacağı təqdirdə baxıla bilər. Bu məsələdə Sergey Lavrov Azərbaycanın prinsipial mövqeyi ilə yaxından tanışdır. Deməli, əslində o, Dağlıq Qarabağın danışıqlar prosesində iştirakının mümkünsüzlüyünü Ermənistana başa salıb.

Bəs, Ermənistanın yeni rəhbərliyinin düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu növbəti dəfə prezident İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin müqəddəs Ramazan bayramı münasibətilə təşkil etdiyi iftar mərasimində göstərdi. Dövlətimizin başçısı bildirdi ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki rəhbərliyin səhvlərini təkrar etməməlidir, konstruktiv danışıqlar aparmalıdır, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sərkisyanın yolu ilə getmiş olacaq. Sonu da Sərkisyanın sonu kimi olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# Elyanora haradadır?

## Bakıda iki rəfiqəsi bıçaqlanıb, amma o tapılmır...



**Bakıda liftdə iki qadına hücum etməkdə təqsirləndirilən şəxsin məhkəməsi davam etdirilir. İş üzrə əsas şahid Bakıda "yoxa çıxıb". Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda ittiham edilən 1990-cı il təvəllüdlü Şəhriyar Əlizadənin cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında iş üzrə şahid qismində yalnız bir nəfərin dindirilmədiyi məlum olub.

O, əsas şahid Elyanora Osmanovadır. Amma maraqlı olan budur ki, Elyanora Osmanova hadisə günü Şəhriyar Əlizadə ilə birlikdə saxlanılmışdı. Hətta rəsmi məlumatda hər iki şəxsin birlikdə fotosu da yer almışdı. O, şübhəli, hətta təqsirləndirilən şəxs kimi də təqdim edilirdi.

Amma məhkəmə istintaqı dövründə hadisənin ilginc məqamları üzə çıxdı. Məhkəmədə məlum oldu ki, E.Osmanova bu işdə təqsirləndirilən şəxs qismində iştirak etmir. Belə ki, E.Osmanova növbəti iclaslarda şahid qismində dindiriləcəkdi. Amma onun tapılması və məhkəməyə gətirilməsi hələ ki mümkün olmayıb. Məhkəmə prosesi bir neçə aydır davam edir.

Bildirək ki, rəsmi məlumata görə, Bakının Nizami rayonu Qara Qarayev prospektində yerləşən binalardan birinin girişində naməlum şəxs və ya şəxslər Bakı şəhər sakinləri Vüsalə Saramanova və Elnarə Mikayılovaya ağır bədən xəsarəti yetiriblər. Hadisə barədə məlumat daxil olan kimi Nizami Rayon Polis İdarəsi (RPİ) 25-ci Polis Bölməsi (PB) əməkdaşları tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Keçirilən əməliyyat nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Lənkəran şəhər sakini Şəhriyar Əlizadə saxlanılaraq istintaqa təhvil verilib.

Araşdırma zamanı qeyd edilən cinayətin törədilməsində Ş. Əlizadə ilə birlikdə qeyri-rəsmi nikahda yaşayan və zərərçəkənlərin rəfiqəsi olan Elyanora Osmanovanın da iştirak etdiyi məlum olub. Həyata keçirilən əlavə tədbirlər nəticəsində E.Osmanova da saxlanılıb.

Məhkəmə iclasında Ş.Əlizadə özünü təqsirli bilməyib. O, Elyanora ilə yaxın münasibətlərinin olduğunu etiraf edib. Ş.Əlizadə söyləyib ki, işdə zərərçəkmiş qadınlar Elyanoranın rəfiqələridir və hazırda da eyni barda işləyirlər. Təqsirləndirilən şəxs iddia edib ki, liftdə adı çəkilən qadınlara hücum etməsi ittihamı doğru deyil. Onun dediyinə görə, "20 Yanvar" metrostansiyası yaxınlığında kafe açmağı planlaşdırıb. Açılış edəcəyi gün polis əməkdaşları ona yaxınlaşıb və polis bölməsinə dəvət edib. Ş.Əlizadə bildirib ki, polis bölməsində ona qarşı ittiham irəli sürülüb.

Məhkəmə bunu Ş.Əlizadənin özünün müdafiəsi kimi qiymətləndirib. İttihamda yazılıb ki, Ş.Əlizadənin yaxın münasibəti olduğu Elyanoranın bıçaqlanan şəxslərlə telefon üstündə mübahisəsi olub. Bu mübahisəni həll etmək, sevdiyi qadının telefonunu geri almaq istəyən Şəhriyar onları bıçaqla vurub.

Ş.Əlizadə barəsində əvvəlcə Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi açılıb. Amma sonra bu maddə Cinayət Məcəlləsinin 181.3.3-cü (quldurluq; zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla törədildikdə) maddəsinə tövsif edilib. Məhkəmədə Vüsalə Saramanova və Elnarə Mikayılova da ifadə verib. Onlar isə hadisənin baş vermə səbəbini başqa cür nəql ediblər. Deyiblər ki, rəfiqələri Elyanora onlardan borca pul istəyib, amma verməyiblər. Vüsalə Saramanova bildirib ki, Elyanora onda pul olduğunu bilib və görüb. Onun sözlərinə görə, Şəhriyar Əlizadə liftdə onların qarşısını kəsərək pul və evin açarını istəyib. Onlar ciblərindəki pulu və açarı versələr də Ş.Əlizadə onları bıçaqlayıb.

Ş.Əlizadə isə özünü təqsirli bilmir və qeyd edilən cinayət əməlini törətmədiyini söyləyir.

Növbəti məhkəmə iclası iyunun 12-də davam etdiriləcək - əgər barəsində məhkəməyə məcburi gətirilmə qərarı çıxarılan Elyanora tapılsa...

**İlkin Muradov,**
**Musavat.com**

**Artıq bir neçə gündür ki, deputat Fazil Mustafanın ölkədə şiələrin əzadarlığını xurafat adlandırıb, bu haqda fikirlər bildirməsi ictimaiyyətdə geniş müzakirə edilməkdədir. Bir çoxları onu bu məsələdə dəstəkləsə də, tənqidi fikirlər səsləndirənlər də var. Onlardan biri jurnalist Rəsul Mirhəşimlidir. Jurnalistin mətbuatda deputatın statusu ilə bağlı tənqidi fikirlər deməsi isə qalmaqala səbəb olub.**



# Məhkəməyə verilən Fazil Mustafa: "Məsələni yumşaltmaqla bağlı fikrimiz var"

## Jurnalist Rəsul Mirhəşimli: "Fazil Mustafa üzr istəməsə..."

Belə ki, Fazil Mustafa onun şərhinə təhqirlə cavab verib: "Doğrusu, illərdir xalq hərəkatından tanıdığım, davranışlarına hörmət bəslədiyim Rəsul Mirhəşimlinin bu qədər cahil, gerizəkalı olduğuna üzüldüm və anladım ki, sektant düşüncəsinə qapılmış bu kimi insanlar artıq cəhaləti, nadanlığı, gericiliyi müdafiə edəcək qədər itirilmiş məxluqlardır..."

Bu sözlərə görə jurnalist Fazil Mustafanı məhkəməyə verəcəyini bildirib: "Əgər Fazil Mustafa mənim dediklərim barədə münasibət bildirib, dediklərimin yanlış, yalan olduğunu bildirsəydi, haqlı olmadığını bildiyim halda, yaşca məndən böyük olduğu üçün susardım. Ancaq dövlətin ali qanunverici orqanının təmsilçisi mənim şəxsiyyətimi hədəfə aldı. Şəxsiyyətimin alçaldılmasına yönəlmiş sözləri sosial şəbəkə və mətbuatda yaydığı üçün məhkəməyə müraciət edəcəm. Bu məsələ hüquqi həllini tapmayana qədər geri çəkilmək fikrində deyiləm. Həyatımı ləyaqətlə yaşadım, tərcümeyi-halımda da qaranlıq bircə səhifə belə, yoxdur. Kiməsə ləyaqətimi alçalda biləcək hərəkətlərə səbəb olmağa ömür boyu imkan vermədim, bundan sonra da kiməsə bu fürsəti tanımaram".

Jurnalist Mətbuat Şurasının sədri Əflatun Amaşova müraciət edərək, bir jurnalistin söz haqqını təhqir və böhtanla alçaltmağa yönəlmiş davranışın sədri olduğu qurumda müzakirə olunmasını, bu məsələnin diqqətdə saxlanmasını xahiş edib.

Məsələ ilə bağlı millət vəkili Fazil Mustafanın da mövqeyini öyrənməyə çalışdıq. Deputat "Yeni Müsavat"a açıqlamasında məsələni yumşaltmağa çalışacağını deyib: "Hər kəsin məhkəməyə müraciət etmək hüququ var. Məsələlər məhkəmədə aydınlaşdırılarsa, daha yaxşı olar. Məsələni yumşaltmaq ilə bağlı bir fikrimiz var. Lakin hələ ki, məsələ üzr istəmək səviyyəsində deyil".

Jurnalist Rəsul Mirhəşimli isə məhkəmə iddiasında qaldığını deyib: "25 illik jurnalistlik fəaliyyətim dövründə heç vaxt qalmaqalla gündəmə gəlməmişəm, nə də ki kiminsə şəxsiyyətinə toxunmuşam. Məsələni aydınlaşdırmaq üçün bir çox işlər görürük. Ona görə də bu günlərdə bu haqda danışmaq istəmirəm... Fazil Mustafanı tanıdığım gündən münasibətlərimiz normal olub, bu məsələ ilə də bağlı aramızda heç bir müzakirə, söhbət olmayıb. Məndən jurnalist soruşub, mən də deputatın şəxsiyyətinə toxunmadan şərh bildirmişəm. Bir görüş olmalıdır, onun nəticəsini gözləyirəm. Adam məni təhqir edib, halbuki deyir ki, dediklərində heç bir təhqir yoxdur. Əgər deputat üzr istəmək niyyətində deyilsə, nəzərə alsın ki, mən məhkəməyə verəcəyəm. İş Avropa Məhkəməsinə gedib çıxsa belə, geri çəkilməyəcəm. Hətta lazım gələrsə Milli Məclisə, ölkə prezidentinə də müraciət edəcəm".

Jurnalist deputatın "məsələni yumşaltmaq" fikrinə də münasibət bildirib: "Məsələni ancaq belə yumşalda bilər, Fazil Mustafa Facebook səhifəsində mənim haqqımda yazdığı statusu siləcək, məni təhqir etdiyinə görə üzr istəyəcək. Məsələnin birmənalı şəkildə yolu budur".

**Xalidə Gəray,**
**"Yeni Müsavat"**

# Xoşqədəm daha bir dəhşətli qətlin üstünü açdı

## Qatil özünü pəncərədən ataraq intihar elədi

**"Səni axtarıram" şou-proqramının müəllifi və aparıcısı (Xəzər TV) Xoşqədəm Hidayətqızı daha bir dəhşətli cinayətin üstünü açıb. Musavat.com yerli mətbuata (unikal.org, lent.az və digərləri) istinadla xəbər verir ki, may ayında Bakıya gələn və daha sonra itkin düşən qazaxıstanlı biznes-ledinin əslində internetdə tnanış olub münasibət qurduğu Oğuz sakini tərəfindən öldürüldüyü Xoşqədəmin sayəsində üzə çıxıb. Bu qətli törədən şəxs daha sonra çağırıldığı polis şöbəsində özünü pəncərədən ataraq intihar edib.**




Qazaxıstan vətəndaşı, 1985-ci il təvəllüdlü Atçıbayeva Aygül Almaz qızının may ayında Azərbaycana gəldiyi, daha sonra yoxa çıxdığı barədə onun yaxınları Xoşqədəmin proqramına müraciət ediblər. Xoşqədəm həmin qadının Bakı aeroportundan itkin düşməsi barədə elan verib. Elanda deyilirdi ki, həmin qadın internet üzərindən tanış olub münasibət yaratdığı Azərbaycan vətəndaşı ilə görüşmək üçün gəlib. O, həmin şəxslə Oğuz rayonunun Qarabulaq kəndinə gedib, orada 3 gün qaldıqdan sonra Qazaxıstana dönmək üçün Bakıya qayıdıb. Yaxınlarının dediyinə görə Aygül Atçıbayeva həmin şəxslə bu il mayın 27-də Heydər Əliyev Bakı Beynəlxalq Hava Limanına qədər gedib, orada "başqa tanışı ilə görüşəcəyini" deyərək ayrılıb və daha sonra ondan xəbər almaq mümkün olmayıb.

Bildirilirdi ki, qazaxıstanlı qadın tanış olduğu həmin Oğuz sakini ilə 10 aya yaxındır birlikdə yaşayıb və 4 aylıq hamilə olub. Aygül Atçıbayevanı axtarmaq üçün onun qardaşı Bakıya gəlib və Xoşqədəmə müraciət edib. O, bacısının azərbaycanlı sevgilisini Elçin kimi tanıdığını, lakin Azərbaycana gəldikdən sonra əsl adının Yolçu olduğunu öyrənib. Qardaşının sözlərinə görə, Aygülün ilk nikahından 11 yaşında qızı var.

Bu elan yayıldıqdan sonra qazaxıstanlı qadının həmin tanışı - 1989-cu il təvəllüdlü Yusifov Yolçu Adışirin oğlu Xoşqədəmin proqramına çıxıb. Ötən gün efirə gedən proqram zamanı bu şəxs Xoşqədəmin və qazaxıstanlı qadının qardaşlarının suallarına qarşısında ziddiyyətli məlumatlar verib, bizneslə məşğul olan qadının gah başqa tanışı ilə görüşmək üçün Bakıda ondan ayrıldığını, gah qəza keçirdiyini, yaxud Moskvaya getdiyini bildirib. Hətta qadının qardaşlarından "Aygülün müalicəsi üçün" 11 milyon təngə istəyib.

Proqramın ardınca Y.Yusifov polisə çağırılıb və orada ondan qazaxıstanlı qadının itkin düşməsi barədə ifadə alınıb. Məlumata görə, polis idarəsində dindirilərkən bu şəxs özünü pəncərədən ataraq intihar edib. Polis şəxsin verdiyi ifadə əsasında qazaxıstanlı qadının meyitini Pirşağı qəsəbəsi ərazisindəki qamışlıqdan tapıb. Hamilə qadının öldürülməsi ilə bağlı cinayət işi qaldırılıb və araşdırmalar gedir.

Xatırladaq ki, bundan əvvəl Xoşqədəm öz şou proqramında Salyan rayonunda illərdir itkin düşmüş hesab edilən 4 bacının və analarının əslində qızların öz atası tərəfindən öldürülərək cəsədlərinin yaşadıqları evin döşəməsinin altında basdırıldığını üzə çıxarıb. "Səni axtarıram" proqramı daha bir neçə belə cinayətlərin üstünün açılmasına səbəb olub.

Saytlar yazır ki, qazaxıstanlı hamilə qadının Azərbaycanda tanışı tərəfindən öldürülməsi, daha sonra qatilin özünü polis şöbəsindən ataraq intihar etməsi hadisəsi şəxsən daxili işlər naziri Ramil Usubov tərəfindən nəzarətə götürülüb. Bu qətlin təhqiqatı ilə bağlı Xoşqədəm Hidayətqızının və onun proqramının texniki əməkdaşlarının da polisə çağırılaraq ifadələrinin alındığı xəbər verilir. Gözlənilir ki, tezliklə hüquq-mühafizə orqanları bu qətl və qətli törədən şəxsin intiharı ilə bağlı rəsmi məlumatla çıxış edəcəklər.

**Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın baş nazirliyindən bir ay ötdü. Əfsus ki, keçən bir ay Qarabağ məsələsində işğalçı ölkə tərəfdən heç bir pozitiv hərəkətlənməyə səbəb olmadı. Əksinə, belə məlum oldu ki, məsələdə kifayət qədər naşı olan Paşinyan problemi həll eləməkdən çox, qəlizləşdirməyə qadirdir. Onun hələ də Dağlıq Qarabağdakı separatçı rejimi müstəqil tərəf kimi danışıqlara qoşmaqda israr eləməsi buna sübutdur.**






# Bakının işğalçıya son xəbərdarlığı və "addım-addım" taktikası

## Azərbaycandan Paşinyanın 1 aylıq baş nazirliyinə sürpriz - Qarabağ ətrafında yeni gəlişmə; **türkiyəli politoloq:** "Paşinyan baş nazir olan kimi anladı ki..."

Bəllidir ki, artıq işğalçının 1 nömrəli müttəfiqi Rusiya da bu tələbi rədd edib və onu hətta "destruktiv" adlandırıb. Rəsmi Bakının mövqeyi isə çoxdan məlumdur. Ötən həftə bu xüsusda Azərbaycan prezidenti İlham Əliyev bir daha qarşı tərəfi, Ermənistanın yeni rəhbərliyini Qarabağ məsələsində konstruktiv mövqe tutmağa çağırdı...

Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarova görə, əslində ölkə başçısının həmin çıxışı Ermənistanın yeni rəhbərliyinə sonuncu xəbərdarlıqdır. "Ermənistan Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı artıq işə başlamaq üçün ciddi tədbirlər görməlidir. Əks təqdirdə məsuliyyət İrəvanın üzərinə düşəcək" - T.Zülfüqarov bildirib.

Politoloq prezidentin işğalçıya xəbərdarlığını təqdir edərək deyib: "Paşinyanın ilk addımları da sübut etdi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həll edilməsini istəmir. Bu baxımdan prezidentin son xəbərdarlığında əsas ünvan əslində Ermənistan yox, beynəlxalq ictimaiyyətdir. Sirr deyil ki, Ermənistanın yeni iqtidarı ədalətli sülhün bərpasına hazır deyil və işğalçılıq siyasətini davam etdirmək niyyətindədir. Hesab edirəm ki, Azərbaycan Qarabağ məsələsinin həlli ilə bağlı öz təkliflərini verdi və Ermənistanı yenidən səhvə yol verməməyə çağırdı. Əgər İrəvan işğalçılıq siyasətini davam etdirsə və Bakının təklifini nəzərə almasa, baş verənlərin məsuliyyətini məhz Ermənistan daşıyacaq".

*****

Söz düşmüşkən, Azərbaycan bu arada düşmən tərəfdən konstruktivlik gözləmədən öz ərazilərini "addım-addım" taktikası ilə azad eləməkdə davam edir. Söhbət Naxçıvan-Ermənistan sərhədində 11 min hektar ərazimizin, o cümlədən 26 ildir işğal altında olan Günnüt kəndinin azad edilməsindən edir. Bu faktı artıq erməni tərəfi rəsmən təsdiqləyib. Onu Paşinyanın bir aylıq baş nazirliyi üçün Azərbaycanın orijinal "sürprizi" də saymaq olar.

"Naxçıvanda işğaldan azad olan torpaqlarımız bəlkə də böyük qayıdışın, böyük proseslərin başlanğıcıdır". Bu sözləri axar.az-a Qarabağ müharibəsi veteranı, ehtiyatda olan polkovnik Şair Ramaldanov Şərur rayonunun Günnüt kəndinin 26 ildən sonra Azərbaycan Ordusunun nəzarəti altına keçməsinə münasibət bildirərkən deyib.

O bildirib ki, bu gün Azərbaycan ordusunun əzmkarlığünü nəinki biz, hətta beynəlxalq statistik qurumlar da təsdiq edir: "Şərur rayonunun Günnüt kəndindən əhali düşmən işğalı zamanı köçməyə məcbur olmuşdu və buradakı infrastruktur dağılmışdı. Hazırda orada azad olunmuş torpaqlar Ermənistanla dövlət sərhədinə qədər olan böyük bir ərazini əhatə edir".

Hərbi ekspertin sözlərinə görə, Cocuq Mərcanlıda olduğu kimi, azad olunan bu kəndimizdə də tezliklə bərpa işləri gedəcək və sakinlər öz yurd-yuvalarına qayıdacaq: "Bu torpaqların işğaldan azad olunmasının həm hərbi, həm strateji əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan artıq Xankəndidən İrəvana gedən yolu nəzarətdə saxlaya biləcək. Azərbaycan öz torpaqlarını qaytarıb, ordumuz Ermənistan sərhədini keçməyib. Azərbaycanın heç vaxt işğalçı niyyəti olmayıb".

Polkovnik vurğulayıb ki, artıq Ermənistan bizim gücümüzün qarşısında sona qədər davam gətirə bilməyəcəyini anlayır: "Ermənistanda olan hərc-mərclik, idarəçilikdə, hərbi strukturlarda olan problemlər, klanlar arasında olan mübahisəli məsələlər, bu ölkənin işğalçılıq siyasəti nəticəsində iqtisadi blokadaya alınması, zəif iqtisadi potensial və s. Ermənistanı zəiflədir. Onların vəziyyəti gündən-günə pisləşir, perspektiv yoxdur, infrastruktur bərpa olunmur, ölkəyə investisiya qoyulmur. Daima qorxu içində yaşamaq o qədər də asan deyil". O, əlavə edib ki, proses Azərbaycan torpaqları tam işğaldan azad olunana kimi bu və ya digər formalarda davam edəcək. "Ermənistan tərəfi bundan düzgün nəticə çıxarmasa, konstruktiv mövqe tutmasa, ola bilsin ki, proseslər bundan sonra irimiqyaslı anti-terror əməliyyatına çevrilsin. Naxçıvanda işğaldan azad olunan torpaqlar böyük qələbələrin başlanğıcıdır və bunun davamı olacaq. Buna bizim tarixi haqqımız da çatır", - deyə o qeyd edib.

*****

Təəssüf ki, Ermənistanın yeni rəhbəri sələfləri kimi odla oynayır və yaxınlaşan böyük təhlükənin fərqində deyil. Əcnəbi analitiklər də məsələnin bu tərəfinə, Paşinyanın Qarabağ məsələsində qəribə davranışına xüsusi diqqət çəkməyə başlayıblar.

"Məsələ ondadır ki, İrəvandakı etirazlar zamanı özünü "qərbçi" kimi göstərən Paşinyan Rusiyaya müxalif münasibətini gizlətmirdi. Ancaq baş nazir olan kimi anladı ki, Moskvanın dəstəyi olmadan irəli etmək mümkün deyil. Bu da Dağlıq Qarabağ məsələsinə bilavasitə təsir elədi". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri Vesti.az saytına türkiyəli politoloq, Cənubi Qafqaz üzrə ekspert Mehmet Fateh deyib.

Politoloqun sözlərinə görə, Qarabağ məsələsi Ermənistan hakimiyyətləri üçün həmişə öz təsirini artırmaq vasitəsi olub: "Və bundan onlar elə-belə imtina etməyəcəklər. Erməni cəmiyyəti üçün də uğurlu rəhbər o kəs deyil ki, Qarabağda sülhə nail olsun, odur ki, Qarabağı güc yolu ilə olsa belə, əldə saxlasın və Azərbaycana verməsin. Nahaq yerə Paşinyan oğlunu Dağlıq Qarabağa hərbi xidmət keçmək üçün göndərmir. Bu, yuxarıda deyilən sözlərin bariz təsdiqidir. Hərçənd, onun öz oğlunu başqa ölkə saydığı Qarabağa göndərməsi artıq paradoksdur. Axı, məntiqlə Ermənistan gəncləri Dağlıq Qarabağda hərbi xidmət keçməməlidir".

Ekspertə görə, bu məqam hər halda Nikol Paşinyanın əlinə işləyə və daxili siyasətdə onun populyarlığını artıra bilər. "O anlamda ki, əgər erməni ailələri öz övladlarını Dağlıq Qarabağa göndərməkdən imtina eləməsələr, Paşinyan özünə xal toplayaq", - deyə o əlavə edib.

Ancaq erməni ailələri atəşkəs dövründə kifayət qədər tabut alıb. Məntiqlə indi onlar Qarabağda övladlarının ucuz ölümündə deyil, daimi sülhün bərqərar olmasında maraqlı olmalıdır. Baş nazir Nikol Paşinyandan bunu tələb etməyəcəklərsə, o zaman yeni tabutlara hazır olsunlar. Ən azından Bakının işğaldakı əraziləri "addım-addım" azad eləmək taktikası bunu qaçılmaz edəcək...



## Cocuq Mərcanlı kimi Günnüt əhalisi də öz yurduna qayıdacaq

**Xəbər verildiyi kimi, 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra Ordumuzun nəzarəti altına keçib. Artıq 26 illik yurd həsrəti sona çatan kənd camaatı doğma yurdlarına qayıdıb, yaxınlarının məzarlarını ziyarət edibər. Günnüt məzarlığında 26 il sonra Quran oxunub.**

Musavat.com-un məlumatına görə, Naxçıvan parlamentinin deputatı Tariyel Talıbov modern.az-a açıqlamasında kənd sakinlərinin işğaldan azad edilən ərazilərə köçürülə biləcəyindən danışıb. "1992-ci ildə işğal edilən Günnüt kəndinin əhalisinin çoxu Sədərək, Şərur rayonlarında məskunlaşıb. Kəndin sakinləri sevinc içindədir. Əhalinin ora köçürülməsi istiqamətində işlər gedir. Hazırda hərbçilərimiz ərazini minalardan təmizləyir. Bu işlər yekunlaşandan sonra insanlar kəndə köçüb məskunlaşacaq".

Deputat Günnüt kəndinin zəngin torpaq sahəsi olduğunu da bildirib.

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# Tramp-İn görüşü dünya düzənini dəyişəcək?

## Politoloq: "Şimali Koreyanın ABŞ-a yaxınlaşmasının böyük geosiyasi səbəbləri var"



**ABŞ prezidenti Donald Tramp Şimali Koreya lideri Kim Çen İn ilə görüşmək üçün Kvebekdən Sinqapura uçub. KXDR və ABŞ liderlərinin tarixi görüşü iyunun 12-də Sinqapurun Sentos adasında yerləşən "Capella" otelində keçiriləcək. Görüş dünya analitiklərinin diqqətindədir. Məsələ ilə bağlı müxtəlif şərhlər var.**

"Yeni Müsavat"a danışan politoloq Nəzakət Məmmədova bildirdi ki, dünya miqyasında rəsmi olaraq Şimali Koreya avtoritar rejimli dövlət kimi təqdim olunur: "Başqa yanaşmalar da var ki, biz də Trampın fikirlərinə məhz bu prizmadan da baxa bilərik. Bəzi analitiklər hesab edirlər ki, bütün bunlar Çinin layihəsidir. Yəni dövləti Çin ABŞ-a qarşı himayə edir. Bir qrup isə hesab edir ki, bu himayədar Rusiyadır. İkinci ehtimal çox zəifdir və ona əsaslanırlar ki, Şimali Koreyada sosializmə bənzəyən bir quruluş var. Ən inandırıcısı isə budur ki, məsələ Pentaqonun özünün bir projesidir və Asiya Sakit Okean hövzəsindən Çinə qarşı istifadə etmək üçün orada hərbiləşmiş dövlət saxlayıblar. Tramp əvvəl buna qarşı idi. Bilirik ki, onun Pentaqon və eləcə də Mərkəzi Kəşfiyyat İdarəsi ilə çox gərgin münasibətləri vardı. Lakin sonradan onların arasında yaxınlaşma baş verdi. İkinci bir tərəfdən, ABŞ prezidenti ilə görüşüb, onun protokoluna daxil olmaq hər bir dünya dövlətinin lideri üçün arzuolunan haldır. Yəni əksər liderlər bunu özlərinin bir nömrəli vacib səfəri sayırlar. İndiyə qədər ABŞ Şimali Koreyanı sıxışdırıb, dünyadan təcrid etməyə çalışırdı. Ancaq indi artıq Şimali Koreya öz nüvə ambisiyalarından imtina etdiyini bəyan edib və ABŞ-la yaxınlaşır. Bu da onu göstərir ki, Şimali Koreyanı dünya siyasətinə artıq sivil bir dövlət kimi göstərməyə çalışırlar. Yəni Trampın Şimali Koreya rəhbəri ilə görüşməsi həmin dövlətə olan müsbət bir münasibətin formalaşdığını göstərir".

Politoloqa görə, Amerika artıq xeyli müttəfiqlərindən imtina edir: "Yaxud da vəziyyət elə alınır ki, müttəfiqləri ondan uzaqlaşırlar. Yaxın Şərqdə gördük ki, Türkiyə uzaqlaşdı və ABŞ orada Səudiyyə Ərəbistanı ilə münasibətlərini mülayimləşdirdi. Guya onlar dövlət ideologiyası kimi vəhhabilikdən imtina etdilər. Yəni Yaxın Şərqdə ABŞ Türkiyənin yerinə Səudiyyə Ərəbistanını qoydu və onu, sivil bir dövlət kimi göstərməyə çalışır. Cənubi Qafqazda da açıq deyək ki, əvvəl müttəfiqi Gürcüstan olduğu halda, hazırda bu, Ermənistandır. Eynilə Asiya-Sakit Okean hövzəsi ABŞ üçün çox vacibdir. Yəni orada Rusiya və Çin kimi güc var. Amerika dünyanın hər regionunda özünə yaxın bir müttəfiq dövləti saxlayır. Şimali Koreyanın ABŞ-la yaxınlaşmasının böyük geosiyasi səbəbləri var. Yəni Şimali Koreya resurslarla zəngin ölkə deyil ki, deyək Amerikanın orada hansısa iqtisadi marağı var. Burada söhbət sırf geosiyasi maraqdan gedir. Əlbəttə ki, Amerika bu dövlətdən Rusiya və Çinə qarşı istifadə etməyə çalışır. Bütün hallarda ABŞ bütün dünyaya göstərir ki, Şimali Koreya ilə münasibətləri əvvəlki kimi deyil. Artıq göstərilir ki, ABŞ Şimali Koreya ilə yaxınlaşmaq niyyətindədir və bu ölkə nüvə ambisiyalarından imtina edir. Bu həm də İrana da bir mesajdır. Yəni göstərir ki, siz də nüvə ambisiyalarınızdan imtina edin. Amerikanın yaxınlaşdığı dövlət dünya siyasətində müsbət obraz qazanır. Çünki Amerika kimi istəyirsə demokratik, kimi də istəsə diktator dövləti kimi elan edir. İndi Şimali Koreyanı da öz hərbi ambisiyalarından, inadkarlığından əl çəkib, dünyaya qovuşmaq istəyən dövlət kimi qələmə verirlər. Təbii ki, görüşün məqsədi də elə budur".

N. Məmmədova hesab edir ki, dünyada Amerikanın güc dəngəsinin dəyişməsi prosesi gedir: "Amerikanın əvvəlki müttəfiqləri ilə problemləri yaranır və yeni müttəfiqlərlə işləməyə başlayır. Bu, hər iki tərəf üçün əhəmiyyətli olacaq. Ən çox da bundan Şimali Koreya xeyir görəcək. Təbii ki, ABŞ-ın da faydası odur ki, bu dövlət onun iki böyük rəqibinin yaxınlığında yerləşir. Bu həm də Çin və Rusiyaya mesajdır ki, sizin qulağınızın dibində müttəfiq dövlət əldə etmişik".

❑ **Əli Rəis,**
**"Yeni Müsavat"**

**Türkiyədə keçiriləcək növbədənkənar prezident və parlament seçkilərinə 13 gün qalır. Qardaş ölkədə seçkilərə doğru hər keçən gün proseslər qızışır. Artıq bütün diqqətlər prezidentin ilk turdamı müəyyən olunub-olunmamasına, eləcə də, parlamentdə hansı ittifaqın uğur qazanacağına yönəlib.**



# Türkiyədə kritik seçkilər yaxınlaşır-prezident kim olacaq?

Bir daha məlumat üçün bildirək ki, prezidentlik uğurunda 6 namizəd yarışır. Onlar hazırkı prezident, AKP və MHP-nin birlikdə yaratdığı "Cümhur ittifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan, Cümhuriyyət Xalq Partiyasının namizədi Məhərrəm İncə, İYİ Partiya başqanı Maral Akşener, HDP-nin keçmiş lideri Səlahəddin Dəmirtaş, Səadət Partiyasının başqanı Temel Karamollaoğlu, Vətən Partiyasının başqanı Doğu Perinçəkdir.

Parlament seçkilərində müxalifətin ittifaqı "Millət" adlanır. Hər iki seçkiyə AKP və MHP "Cümhur" ittifaqı ilə qatılıb.

Seçkilərdə kimin qalib gələcəyi, parlamentdə hansı qüvvələrin üstünlük qazanacağı ilə bağlı proqnozlar üst-üstə düşmür. Doğrudur, Ərdoğanın seçkilərdə favoriti olacağı kimsədə şübhə yoxdur. Amma hər kəsi düşündürən bir sual var ki, o da ikinci turun olub-olmayacağı barədədir.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl seçki prosesində rəqabətin getdikcə artdığını söylədi: "Üstünlüyün hansı tərəfdə olduğunu hələ ki söyləmək çətindir. Getdikdə siyasilərin ritorikasında kəskinləşmə görünür. Amma hazırda mənə görə hər hansı bir ciddi dəyişikliyin olduğunu söyləmək imkansızdır. Ümumiyyətlə, proqnoz vermək çox çətindir. Burada bir çoxlu kriteriyalar var. Mitinqlər bu dəfə daha çox göstəricidir. Açığını söyləmək gərəkirsə, siyasi partiyalar aktiv olsa da, cəmiyyətdə çox aktivlik müşahidə edilmir. Doğrudur, gizli aktivlik var, amma bu da özünü açıq şəkildə göstərmir. Bu səbəbdən sürpriz nəticələr ola bilər. İkinci turun olacağı ehtimallarının böyük olduğunu bir daha söyləyirəm. Əgər seçkilərə qalan müddət ərzində Ərdoğan və onun ətrafı ciddi həmlələr etməsə, ehtimal olduğu kimi qalacaq. Seçkilərə qalan bu müddət də az zaman deyil. Hakimiyyətin əlində çoxlu vasitələr qalır".



**Toğrul İsmayıl:** "Ərdoğan prezident seçilsə də, Məclisdəki böyük üstünlüyünü əldən verə bilər"

Toğrul bəy vasitələr dedikdə nələri nəzərdə tutduğuna bu cür aydınlıq gətirdi: "Dövlətin imkanlarından və digər məsələlərdə iqtidar öz lehinə istifadə edir. Hazırda əsas hədəf ona görə Məhərrəm İncədir ki, CHP-nin hakimiyyəti tənqid etmək imkanları daha genişdir. Meral Akşenerin partiyası hakimiyyətdə olmayıb. Akşener qısa müddətdə daxili işlər naziri olub ki, onu tənqid etmək çətindir. CHP və İncə hazırda əsas hədəf halına gəlib. Unutmaq olmaz ki, İyi və Səadət partiyaları da sağ mühafizəkardırlar. Bir növ bu partiyaları tənqid etmiş zaman AKP əsas hədəfini dəyişdirmiş olur. Amma CHP fərqli bir görüşdədir. Bunun üçün CHP-ni hər zaman rəqib kimi göstərmək mümkündür. Ərdoğan qeyri-şərtsiz liderdir. O çalışacaq ki, ilk turda lazımı səsi yığsın. Bunu əldə etmə imkanları var. Hər zaman gözlənilməz hərəkətləri edən çox ciddi bir siyasətçidir. Bu xüsusiyyətləri ilə digərlərindən fərqlənir. əgər ikinci tur olarsa, burada əsas olan namizədlərin toplayacağı səslər olacaq. HDP-ni heç bir halda unutmaq olmaz. Bu partiyanın barajı keçib-keçməməsi seçkilərin nəticələrinə təsir göstərəcək faktorlardan biridir. Əgər HDP 10%-lik barajı aşa bilməsə, o bölgələrdə ciddi səs parçalanması olacaq. Onu da unutmaq olmaz ki, o bölgələrdə həmin səsləri ən çox qazanmaq şansları AKP-dədir. Əgər HDP-i barajı aşmasa, oradan AKP namizədləri çıxacaq. İyi Partiya ölkə boyu tamamilə təşkilatlana bilmədi. Çünki zaman çox qısa idi. Dolayısı ilə bu seçkilərdə İyi Partiyanın böyük bir uğur qazandığını söyləmək çox çətindir. Amma hər zaman seçkilərdə bir sürpriz ola bilər. Burada seçkilər, məsələlər çox fərqlidir. CHP oturuşmuş partiyadır. Hər şey bəllidir. Məhərrəm İncənin aktiv olacağı əvvəlcədən də bilinirdi. Bu da seçkilərə öz təsirini göstərir. Heç bir halda unutmaq olmaz ki, prezident və parlament seçkiləri tamam ayrı-ayrı seçkilərdir. Bunların hər birinə ayrı-ayrı baxmaq lazımdır. Bəzən Azərbaycan cəmiyyətində bunları qarışdırıb, hər iki seçkini bir görürlər. Amma bu belə deyil. Burada əsas olan seçkilər ikinci tura qalarsa, siyasi partiyalar arasında olacaq görüşlərdir".

Politoloq parlament seçkiləri ilə bağlı da gedən kampaniyadan danışdı: "Bu seçkilər də çox qarışıq olduğu üçün nəsə söyləmək çox çətindir. Məsələn, Atilla Kaya MHP-nin ən önəmli fiqurlarından biridir, Dövlət Baxçalıya müxalif oldu. Amma onun açıqlaması çox ilginc idi. Bir yandan deyir ki, biz başqanlıq seçkilərində Ərdoğanı dəstəkləmirik, digər tərəfdən isə dedi ki, Məclis seçkilərində səslərinizi MHP-yə verin. Yəni burada dəngələr dəyişə bilər. Son dönəmlərdə MHP ciddi şəkildə səs itirib. Bu dəfə də belə ehtimallar olmamış deyil. Fərqli ssenarilər gedir. Məsələn, Ərdoğan prezident seçilsə də, Məclisdəki böyük üstünlüyünü əldən verə bilər. Burada həssaslıq olduqca yüksəkdir. Bu səbəbdən proqnoz vermək çətindir. Unutmaq olmaz ki, Türkiyə parlamentində HDP kimi bir partiya varsa, MHP kimi milliyyətçi bir partiyanın olması labüddür. Son dönəmlər Baxçalının yürütdüyü siyasətdə anlaşılmazlıqlar var. Hər halda onun əlindəki məlumatlar bizdən daha çoxdur. Dəyişik manevrlər edə bilir. Baxçalı hər zaman bu cür məqamlarda dövlətçilik məsələlərini önə çıxarır. Amma bu o demək deyil ki, digər partiyalarda bunlar yoxdur. Seçkilərdə pərdəarxası söhbətlər çox olur. Hər şeyin nəticəsini seçkilər göstərəcək. Nəyin doğru olub-olmadığını görəcəyik. Baxçalı bildiyiniz kimi erkən seçkilərin ilk tərəfdarı olanlardan biri oldu. O zaman Məclisə girə bilmədi. Əhməd Davudoğlu dönəmində koalision hökumət qurmaq ittifaqına girdiyində bunu rədd etdi və təkrar seçkilərə gedilməsi üçün cəhdlər etdi. Orada da Məclisdə çox ciddi şəkildə səslər itirdi. Üçüncü dəfə hesab edirəm ki, əvvəlki iki səhv addımdan nəticələr çıxarıb belə addım atıb. Heç bir halda unutmaq olmaz ki, bu siyasətçi dövlətin gələcəyini, onun maraqlarını daim önə çıxarır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

**Oğlunun intihar etməsinə görə cinayət məsuliyyətinə cəlb edilən ata məhkəmə zalında həbs edilib. O, oğlunu ölüm həddinə çatırmaqda günahlandırılaraq qandallanıb.**

# Siyəzəndə faciə: atanın qəddar davranışından bezən oğul özünü öldürdü

## Arvadını və uşaqlarını döyüb, ölümlə hədələyən və bununla övladının canına qıymasına səbəb olan Mirkamil Məmmədova iş kəsildi



Musavat.com xəbər verir ki, 1967-ci il təvəllüdlü Məmmədov Mirkamil Ağayar oğlu Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə təqsirli bilinərək Siyəzən Rayon Məhkəməsinin 8 fevral 2018-ci il tarixli hökmü ilə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun cəzası Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə 2 il sınaq müddəti müəyyən edilib və azadlıqda qalıb.

Hökmə əsasən spirtli içki aludəçisi olan Mirkamil Məmmədov oğlu Səbuhini uzun illərdir mütəmadi olaraq nalayiq ifadələrlə söyüb təhqir edib.

Son vaxtlarda isə oğluna qarşı hərəkətlərinin şiddətini bir qədər də artırıb, ona qarşı amansız rəftar edərək bir neçə dəfə də döyüb. Sonuncu dəfə 2017-ci ilin 25 iyulunda Mirkamil Məmmədov sərxoş olan zaman arvadı Filurə Məmmədovanın əxlaqsızlıqla məşğul olmasını bəhanə gətirərək mübahisə edib, onu və oğlunu döyüb.

Mirkamil Məmmədov oğlunun ləyaqətini alçaldıb psixi iztirablar verməklə, həmçinin hədə-qorxu gəlmə yolu ilə onu öldürməklə hədələyib. Həmin vaxt Səbuhi Məmmədov DİN-nin “102 xidməti”nə zəng vuraraq atası Mirkamil Məmmədovun onları döyməsi və öldürəcəyi ilə hədələməsi barədə məlumat verib.

Siyəzən rayon polis şöbəsinə gedərək qardaşı Sənan Məmmədovla birlikdə bu barədə izahat veriblər. Bundan hiddətlənmiş Mirkamil Məmmədov oğlunu və digər ailə üzvlərini evə buraxmayıb. Onlar da həmin gecəni bütün ailə üzvləri ilə eyvanda keçiriblər.

Bundan sonra Səbuhi Məmmədov evi tərk edib və Siyəzən şəhərində kirayədə yaşamaq üçün ev axtarmağı planlaşdırıb. Daha sonra Qubada yaşayan əsgərlik yoldaşının yanına gedib. Anası Filurə Məmmədova ona zəng edərək kəndə qayıtmasını, kirayəyə ev tutacaqlarını deyib. Amma maddi sıxıntılara görə ev kirayələyə bilməyib. Bununla da atasının nalayiq hərəkətlərindən uzaqlaşa bilməyəcəyini düşünərək özünü həyətlərindəki tut ağacından asıb.

İntihardan əvvəl yazdığı məktubda isə atası tərəfindən hədələnməsini göstərib.

Mirkamil Məmmədovun barəsindəki hökmdən dövlət ittihamçısı protest verib. Dövlət ittihamçısı Mirkamil Məmmədovun barəsində şərti cəza hökmünün dəyişdirilməsini və həbs edilməsini istəyib.

Prokuror apelyasiya protestini onunla əsaslandırıb ki, birinci instansiya məhkəməsi Mirkamil Məmmədovun törətdiyi cinayətin xarakterini, ictimai təhlükəlilik dərəcəsini və məhkumun şəxsiyyətini nəzərə almayıb, cinayət qanununda nəzərdə tutulmayan halları əsassız olaraq cəzanı yüngülləşdirən hal kimi qəbul edib və nəticədə cinayət qanunu normasını düzgün tətbiq etməyib.

Mirkamil Məmmədov isə apelyasiya şikayətində bəraət hökmü çıxarılmasını istəyib. O deyib ki, oğlunun ölümündə özünü təqsirli hesab etmir. Bəzi məqamlarda oğlunu danlasa da, bunu oğlunun gələcəyini fikirləşdiyi üçün edib. Və fikirləşməyib ki, oğlu buna görə özünü öldürə bilər.

M.Məmmədov bildirib ki, oğlunu heç vaxt döyməyib, ona əl qaldırmayıb: “Son vaxtlar Səbuhi özünə qapalı idi. Həmin gün qışqırıq səslərini eşitdim. Həyətə qaçanda Səbuhinin tut ağacının budağından asılı vəziyyətdə olduğunu gördüm”.

Mərhumun hüquqi varisi, qardaşı Sənan Məmmədov ifadəsində göstərib ki, atası Mirkamil Məmmədov mütəmadi olaraq araq içib öz hərəkətlərini idarə edə bilməyib. Onu, anasını, bacısını və qardaşı Səbuhini mütəmadi olaraq döyüb, şərəf və ləyaqətlərini alçaldıb: “Onun bu hərəkətlərindən bezmişdik. Hadisədən qabaq işdən evə gələndə atam Mirkamilin sərxoş vəziyyətdə anam və qardaşımla dava etdiyini eşitdim. Atam anamı əxlaqsızlıqda günahlandırırdı. Qardaşım da atama "sən get öz qeyrətini çək" dedi. Atam Səbuhiyə 2-3 sillə vurdu. Mən onları sakitləşdirmək istədim, amma atam üzərimizə gələrək mənə və anama da zərbələr vurdu. Atam mətbəxə gedərək “bu dəqiqə bıçaq gətirib burada qan tökəcəm” dedi. Anamgil bağa qaçdı. Atam anamı vurmaq istəyəndə anam qapını bağladı. Bıçaq qapıya dəydi. Səbuhi polisə zəng elədi. Biz gedib izahat yazdıq. Qayıdanda atam bizi evə buraxmadı".

Sənan Məmmədov yaşadıqlarını belə izah edib: “Anam Filurə kənddə olan boş məişət otağının onlara verilməsini xahiş etmək üçün bələdiyyəyə getdi. Bələdiyyədən də icra hakimiyyətinə müraciət etməli olduğunu dedilər. Səbuhi Qubaya dostunun yanına getmişdi. Bizə zəng edib ev tapacağımızı dedi. O, Siyəzənə köçməyimizi istəyirdi. Anam da dedi ki, kənddə məktəbin yanında olan məişət otağında qalmağa icazə istəmək üçün birinci gün icra hakimiyyətinə gedəcək. Anam Siyəzənə getməyimizi istəmirdi, çünki mən kənddə işləyirdim, bacım da kənddə oxuyurdu. Səbuhi dedi ki, məni niyə çağırırdınız. Həmin gecə də qardaşım özünü asdı”.

Şahid qismində dindirilmiş mərhumun anası Filurə Məmmədova da eyni məzmunlu ifadə verib.

İşdə olan məhkəmə-psixoloji ekspertizasının rəyinə görə Səbuhi Məmmədov ölümündən əvvəlki dövrdə davranış aktlarında təzahür etmiş emosional gərginlik halında olub.

Apelyasiya Məhkəməsinin kollegiyası tərəfləri dinlədikdən sonra qərara gəlib ki, yuxarıda göstərilən sübutlarla müəyyən edilib ki, Mirkamil Məmmədov ondan maddi və mənəvi cəhətdən asılı olmuş oğlu ilə amansız rəftar edib, onun şərəf və ləyaqətini mütəmadi olaraq alçaltma və ona hədə-qorxu gəlib. Bu hərəkətləri ilə Səbuhi Məmmədovu özünü öldürmə həddinə çatdırıb.

Məhkəmə yekun qərarında dövlət ittihamçısının apelyasiya protestini təmin edib. Mirkamil Məmmədov oğlunu ölüm həddinə çatdırdığı üçün məhkəmə zalında həbs edilib. Barəsindəki şərti cəza dəyişdirilib. Mirkamil Məmmədov 3 il 6 ay cəzasını ümumi rejimli həbsxanada çəkəcək.

❑ **İlkin MURADOV, Musavat.com**

# Xaricdəki dəvəquşular



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Rusiyanın Nijni Taqil şəhər sakinlərinin Azərbaycan vətəndaşı Maqsud.M-dən polisə şikayət ərizəsi yazması barədə xəbər oxudum bayaq. Tələb edirlər ki, həmvətənimiz haqqında cinayət işi qaldırılsın. Buna səbəb Maqsudun saxta diplomla özəl klinikada stomatoloq işləməsidir.**

Məlumata görə, diplomda onun 2017-ci ildə Samara Tibb Universitetini bitirdiyi yazılsa da, sonradan bu, öz təsdiqini tapmayıb. Söhbət ondan gedir ki, Rusiya Federasiyası Təhsil və Elmə Nəzarət Federal Xidmətinin bazasında bu adda adama diplom verilməsi barədə heç bir qeyd yoxdur. Şəhər sakinləri deyir ki, o, əvvəlcə şəhər poliklinikaların birinə işə düzəlmək istəsə də, diplomu şübhə doğurduğundan istəyinə nail ola bilməyib. Bundan sonra isə o, özəl klinikanı seçib. Maraqlısı həm də odur ki, o, bu klinikada əsasən uşaqları “müalicə” edir.

Adam oxuduqca qanı donur. Bilmirsən adını cahil cəsarəti qoyasan, ya “fitri istedad”. Anlamaq olmur ki, dələduzluğun bu qədərini etmək üçün içində necə cəsarət olmalıdır. Mən təbii ki, “bizimkilər xaricdə adımızı batırır” klişesinə girmək istəmirəm. Amma fakt-faktlığında qalır ki, illərdir xaricdən üzümüzü ağardan xəbəri gələn azərbaycanlılar olduqca azdır. Avropadan deportasiya olunmamaq üçün intihara, sui-qəsdə, polisi girov götürməyə qədər hər cür addıma gedən azərbaycanlılar barədə bir statistik yazı hazırlayırdım, şoka girdim. Vətənin daşı-torpağı qızıl olmaya bilər. Amma sırf ölkədən kənarda yaşamaq uğruna ən axırıncı yollara getmək, şəxsiyyəti sınağa çəkdirmək niyə?

Mən şəxsən mühacirlərin yaşadığı bir çox düşərgələrdə olmuşam, əksəri barədə xarici telekanalların hazırladığı reportajları izləmişəm. Düşünün, orda bəzən qeyri-insani münasibəti ən üst səviyyədə yaşadırlar mühacirlərə. Heyvansevər ölkə olduqları halda, heyvanlara belə rəva görülməyən münasibət sərgiləyirlər. Qapıları arxadan bağlamalar, çörək dilimlərini sayla verməlr, aşağılama, sərtlikE Məqsəd? Həm də sınamaq! Sən burda yaşamaq üçün nələri gözə almısan deyə. Dəyərmi?

Bəzi nümunələrdə görünür ki, insanlar xaricdə yaşamağı sadəcə, hikkə ilə istəyirlər. Sıfırdan başlamağa razıdılar, küçə süpürməyə, ayaqyolu təmizləməyə razıdılar, üçüncü sort insan münasibəti görməyə də “eyvallah” deyirlər. Təki geri qayıtmasınlar, gəldikləri yerdə “hə, əcəb oldu” sözünü eşitməsinlər deyə. Halbuki bunu Suriyadan, İraqdan gələnlərin səbəbləri ilə müqayisə edəndə necə də cılız, necə də gülməli görünür.

Qayıdaq yazının əvvəlində bəhs etdiyimiz stomatoloqa. Mən bilirəm ki, bizi xaricdə yüksək səviyyədə təmsil edən cərrahlarımız, uroloqlarımız, kardioloqarımızE var. Amma niyə onların səsi bu dələduzların səsini batırmır? Moskva bazarlarında dava salanların, rus qız-gəlinə sataşıb, məhkəməyə düşənlərin, mafiyanın bir qoluna çevrilənlərin səsi niyə daha gur çıxır görəsən?

Bir dəfə Erkin Qədirlinin bir mühazirəsində dinləmişdim. Həm də gözəl pedaqoq olan Erkin bəy deyirdi ki, Moskva bazarında alver edən azərbaycanlının Dostoyevskini oxuması şərt deyil. O, Raskolnikovu qatilə çevirən səbəbləri bilməsə də olar. Çünki alıcı ilə Dostoyevski barədə söhbətə başlasa, qonşu piştaxtanın arxasında dayanan həmyerlisi digər müştərilərini ələ keçirəcəkE

Cümlələri tam dəqiq yazmamış ola bilərəm, amma məntiq bu idi. Bəli, Moskva bazarında Rusiya ədəbiyyatının bilicilərinə ehtiyac olmaya bilər. Amma səhiyyədə, elmdə heç olmasa saxtakarlar olmayaydı.

Dəfələrlə xarici ölkələrdə olmusuz, əminəm. Ən pis halda, qonşu Türkiyədə, tətil zamanı özünü ən axırıncı variantda aparan gənc həmyerlilərimizi görmüsüz. Onunla xarici dildə danışan satıcıya (qarsona, otel işçisinəE) Azərbaycan dilində söyüşlə cavab verən, ya da istirahət mərkəzində onu heç kəsin tanımamasının verdiyi əminliklə ən səviyyəsiz hərəkətləri edən həmyerlilərimiz. Yadınıza düşdü?

Nəyə görəsə bizimkilərin bir çoxu xaricə gedəndə başını quma soxmuş dəvəquşuna bənzəyirlər. Baş qumda... Dəvəquşu isə heç də həsəd aparılacaq heyvan deyil, xəbəriniz olsun.

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# Leş ət mafiyasını ayaqda saxlayan səbəblər

## Eyyub Hüseynov: "Onları yerli bələdiyyələr və digər qurumların rəhbərləri dəstəkləyir..."



**Azərbaycanda leş ət mafiyası yenidən fəaliyyətə başlayıb. Uzun müddətdir ki, ölkədə leş ət mafiyasına qarşı mübarizə aparılsa da, onların fəaliyyətinə son qoyulmur. Belə ki, ötən həftə Xaçmaz rayonunda 250 kiloqram çəkidə olan yararsız at əti aşkar edilib. Yayılan rəsmi məlumatda qeyd olunub ki, iyunun 7-də alınmış məlumat əsasında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) Xaçmaz Rayon Baytarlıq İdarəsinin və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Karantin tədbirlərini təmin edən əlahiddə polis taboru əməkdaşlarının iştirakı ilə rayonun Çağacuq çayı ərazisində "Mercedes" markalı 99-DV-211 dövlət nömrə nişanlı avtomobilə baxış keçirilib.**

Baxış zamanı avtomobilin yük yerində qeyri-qanuni, antisanitar şəraitdə, üst-üstə yığılmış vəziyyətdə daşınan və sağlamlığına dair heç bir sənədi olmayan, sümükdən ayrılmış 250 kq (iki yüz əlli ) çəkidə olan at əti aşkar olunub.

Avtomobildə aşkar edilmiş 9 ədəd qara rəngli, insan qidası üçün nəzərdə tutulmayan polietilen torbaya yığılmış ətlərdən baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək müayinə üçün Respublika Baytarlıq Laboratoriyasına göndərilib.

Araşdırmalar zamanı ətin Xaçmaz şəhəri, M.F.Axundov 94 ünvanında yaşayan Niçkur Musa İsa oğluna məxsus olduğu müəyyən edilib. Avtomobildə aşkar olunan at ətləri müayinələri başa çatana kimi saxlama kamerasına yerləşdirilib. Qeyd olunub ki, ətdən götürülən nümunələrin laboratoriya müayinələrinin nəticəsindən asılı olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada tədbirlər görüləcək.



Ölkədə leş ət mafiyasının fəaliyyəti ilə bağlı mətbuatda çoxsaylı yazılar dərc olunması, müvafiq qurumların keçirdikləri əməliyyatlarla bərabər, məsələ Milli Məclisdə də müzakirə edilib. Belə ki, Milli Məclisin deputatı Tahir Kərimli bildirmişdi ki, məsələnin Cinayət Məcəlləsində xüsusi maddə şəklində yer almasına ehtiyac var: "Hüququn bir mənbəyi də adətdir. Bizim adətimiz var və bu qanun şəklini almalıdır. Müsəlman xalqları var, məsələn, qazaxlar, qırğızlar, bunlar at əti yeyir. Azərbaycanda isə bu əti yeyən yoxdur. Bizim milli mətbəximizdə at və eşşək əti yoxdur. Ağsu rayonunun Nuran kəndində bir eşşək 50 manata satılır. Bir neçə il əvvəl bu kənddə yas məclisində idim. Dedilər ki, nə qədər eşşək var, hamısını 50 manatdan alıb aparıblar", - deyə Tahir Kərimli söyləmişdi.

Daha öncə də məlumat verdiyimiz kimi, ötən ilin fevralında prezident İlham Əliyev "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Fərmanda qeyd olunurdu ki, Azərbaycanda qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləmənin, risklərin təhlilinin, qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılmasından ötrü Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq. Artıq bu ilin ilk ayından etibarən agentlik öz fəaliyyətinə başlayıb. Bəs bu agentlik leş ət mafiyasına necə nəzarət edəcək, bu da açıq qalan suallardandır.

"Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, 20 ildir ki, leş əti satanları ifşa etməyə çalışırlar: "Bu məsələdə ən uğurlu işi Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparıb. Keçən ilin may ayından başlayaraq, onlar leş əti satanları dəfələrlə ifşa ediblər. Bu idarənin üstünlüyü ondadır ki, onlar cinayət işi hadisələrinin üzərində işləyirlər. Günahkarları cərimələyib, buraxmırlar. Lakin digər dövlət orqanları cərimə etdikdən sonra şəxsi buraxırlar. Bu vaxta qədər də leş ətləri tələb edən tərəf tapılmayıb. Düşünürəm ki, təhlükəli qida ilə bağlı məsələlər Daxili İşlər Nazirliyinə həvalə olunmalıdır. Qida Təhlükəsizliyi Agentliyi də yanvardan fəaliyyətə başlasa da bildirirlər ki, işlərinə iyul ayından start verəcəklər. Biz birlik olaraq onlara dəfələrlə şikayətlər göndərmişik ki, istehlakçıların hüquqları pozulub. Ancaq bütün bu şikayətlərimizə rəğmən, ortada heç bir nəticə yoxdur. Qida Təhlükəsizliyi Agentliyi qarşısında çox ciddi və əhəmiyyətli məsuliyyətlər qoyulub. Lakin təəssüflər olsun ki, onlar nə ictimaiyyətlə, nə də kütləvi informasiya vasitələri ilə iş aparmağa hazır deyillər. İctimaiyyətin də dəstəyi olmadan heç bir uğurlu nəticə əldə etmək mümkün deyil. Onlardan vəziyyəti dəyişmələrini gözləyirik. Leş mafiyası tam ifşa olunmalı, bu məsələyə son qoyulmalıdır. Mafiyanı yerli bələdiyyələr və digər qurumların rəhbərləri dəstəkləyirlər. Heyvan cəmdəyə çevrilməndən sonra bunu sübut etmək çətindir. Əhali də məsələdə fəal olmalıdır. Neçə ildir iş aparırıq, ancaq ciddi, böyük nəticələr əldə edə bilməmişik. Burada vətəndaşların özündə də günah var ki, heyvan öləndən sonra bunu 20-30 manata belə leş kimi kimisə satır. İkinci bir tərəf də odur ki, tələb olduğu üçün təklif də var. Tələb edib alırlar, ona görə də bu cür satanlar var. Ona nail olmaq lazımdır ki. bu leş ətlər hansı sexlərə, restoranlara verilir? Sovet dönəmində belə bir hal olsaydı, həmin adamın 7-ci nəslinin də başına vurardılar ki, sənin baban camaata murdar ət satmışdı. Bir çox ölkələrdə belə hallar olmasa da, təəssüf ki, Azərbaycanda bu cür əcaib məsələ davam etməkdədir".

❑ **Əli Rais, "Yeni Müsavat"**

# Yay mövsümündə düzgün necə qidalanmalı?

## Həkim üstünlük verilməli olan qidaları sadaladı

**Hər bir fəslin özünə məxsus qidalanma rejimi var. Məsələn, bildiyimiz kimi, qış və payız mövsümlərində daha çox xəmir, ət, isti, qızardılmış yeməklərdən istifadə etməyə çalışırıq. Bəs yayda necə, qida rasionumuz necə olmalıdır?**

Mütəxəssislər qeyd edir ki, yay mövsümündə ilk növbədə çoxlu su qəbul olunmalıdır. Çünki havaların isti keçməsi ilə insan orqanizmində tərlə birlikdə soda, kalium və digər minerallar xaric olunur. Nəticədə insanda halsızlıq, yorğunluq, hərəkət azlığı yaranır, nəbzi zəifləyir. Həmin mineralları yenidən bərpa etmək üçün isə sudan, ayrandan, süd məhsullarından istifadə etmək lazımdır. Lakin bu zaman qazlı və energetik içkilərdən uzaq durmaq lazımdır.

Ekspertlər bu mövsümdə xəmir xörəklərindən mümkün qədər uzaq durmağı tövsiyə edir. Səbəb isə xəmir xörəklərinin insanda halsızlıq, yorğunluq yaratmasıdır. Düyü və makaron məmulatlarından da mümkün qədər az istifadəsi tövsiyə edilir.

Az istifadəsi tövsiyə olunan qidalar arasında ət və kərə yağı da var. Mütəxəssislər vurğuylayır ki, yay mövsümündə kərə yağı həzm olunmur, orqanizmdən sovrulmur. Bunun üçün də əsasən bitki mənşəli yağlardan istifadə etmək lazımdır.

Yay mövsümündə ən çox istifadə edilən qida, dondurmalara gəldikdə isə, mütəxəssislər qeyd edir ki, bişirilmiş şirniyyatlardansa daha çox dondurmalardan və yaxud meyvəli şirniyyatlardan istifadə etmək lazımdır. Lakin dondurmadan istifadə edərkən ilk növbədə onun tərkibinə diqqət yetirmək, qədərində istifadə etmək lazımdır.



Dietoloq Leyla Zülfüqarova mövzu ilə bağlı "Yeni Müsavat"a danışdı: "Yay mövsümündə mayeni daha çox qəbul etməliyik. Mayesi çox olan qidalardan, o cümlədən mövsümü meyvə və tərəvəzlərdən, göyərtilərdən bol şəkildə istifadə olunmalıdır. Bişirilmiş və yaxud çiy şəkildə olan salatlardan istifadə etməliyik. Qida rasionumuza çoxlu süd məhsulları, o cümlədən, qatıq, süd, yumurta əlavə etməliyik. Mövsümü olmayan, sadəcə, piştaxtaları bəzəyən meyvələrdən uzaq durmağa çalışmaq lazımdır. Xəmir xörəklərindən isə tamamilə azaltmaq lazımdır. Kartofla ətin bir yerdə bişirilmiş şəkildə olan yeməklər azaldılmalı, qızartmadan daha çox çiy qidalar yeyilməlidir".

Dietoloq yay mövsümündə ət məhsulundan imtinanın doğru olmadığını qeyd edib: "Qışda həftədə 3-4 dəfə ətdən, balıqdan istifadə ediriksə, bunu bir qədər azaltmalıyıq. Yayda bu qədər ehtiyac yoxdur. Həftədə 1-2 dəfə ətdən istifadə etməyimiz kifayətdir. Tamamilə ətdən imtina etmək olmaz, çünki ət orqanizm üçün çox faydalıdır. Sadəcə, o sıxlığı azaltmaq lazımdır. Yayda çeşidlər daha çoxdur, ona görə də ətə meyl bir qədər az qalır".

Leyla Süleymanova da qeyd etdi ki, energetik və qazlı içkilərdən uzaq durmaq lazımdır: "İnsanlar bəzən maye ehtiyacını energetik içkilərlə ödəyir. Energetik içkilərin çox ziyanı var. Buna görə də çalışmaq lazımdır ki, təmiz ağ su və ya mineral sudan istifadə etmək lazımdır. Qazlı sudan belə istifadə etdikdə onun qazını çıxardıb sonra içmək lazımdır".

❑ **Xalidə Gəray, "Yeni Müsavat", Musavat.com**



# Zaqatalada bir ailənin 6 üzvü qəzaya düşdü

**Zaqatalada bir ailənin 6 üzvü qəzaya düşüb. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə ötən gecə saat 03.00 radələrində Zaqatala-Qax avtomobil yolunun Zaqatala rayonu Çobankol kəndi ərazisindən keçən hissəsində baş verib.**

Balakən rayonu Tülü kənd sakini, 1974-cü il təvəllüdlü Ramiz Bayram oğlu Seyidov idarə etdiyi "Mersedes" markalı "99 KT 616" dövlət nömrə nişanlı minik avtomobili ilə Bakıdan Balakən rayonu istiqamətində hərəkətdə olarkən idarəetməni itirərək maşını aşırıb və maşın yolun səviyyəsindən 4 metr aşağıdakı düzənliyə düşüb. Qəzadan sonra sürücü R. Seyidov, onun həyat yoldaşı 1981-ci il təvəllüdlü Aytən Kamil qızı Seyidova, onların övladları - 2000-ci il təvəllüdlü Xəqani və 2001-ci il təvəllüdlü Sənan, Ramizin bacısı 1976-cı il təvəllüdlü Esmira Bayram qızı Məmmədova və Esmiranın qızı - 2014-cü il təvəllüdlü Fatimə Loğman qızı Məmmədova aldıqları müxtəlif dərəcəli bədən xəsarətləri ilə Zaqatala Mərkəzi Rayon Xəstəxanasına (MRX) aparılıblar.

MRX-dan APA-ya bildirilib ki, yaralılara ilkin tibbi yardım göstərildikdən sonra öz istəkləri ilə müayinə və müalicələrini davam etdirmək üçün Balakən MRX-a göndəriliblər. Balakən MRX-dan bildirilib ki, yaralılardan 3 yaşlı Fatimə Məmmədova reanimasiya, R. Seyidov və E. Məmmədova cərrahiyə şöbəsinə yerləşdiriliblər. Digər yaralıların vəziyyətləri yüngül olduğundan ambulator müalicə almaq şərti ilə evə buraxılıblar.

Faktla bağlı Zaqatala rayon polis Şöbəsində araşdırma aparılır.

## Elan

**Baxşəliyev Asəf Şəfayət oğlunun adına olan şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 126 (7015) 11 iyun 2018

# Avropadakı azərbaycanlı mühacirlərin ilginc hekayələri

## Onlar qayıtmaqdansa... intihara əl atırlar; qürbəti qəbir evinə çevirən səbəblər

**Bu günlərdə xəbər yayıldı ki, azərbaycanlı mühacir Hollandiyada kampda intihar edib. Bu barədə Hollandiyada deportasiya üçün nəzərdə tutulmuş kampda qalan azərbaycanlılar məlumat veriblər. Onların sözlərinə görə, Bakının Yasamal rayonu qeydiyyatında olan Fikrət adlı şəxs Azərbaycana deportasiya edilməmək üçün damarlarını doğrayıb. Xəstəxanaya çatdırılan həmvətənimizin həyatını xilas etmək mümkün olmayıb.**



Məlumatda deyilir ki, o, bir müddət əvvəl Almaniyadan Hollandiyaya göndərilib. İlk sığınacaq istədiyi ölkə Almaniya olub və o, bura 2016-cı ildə gəlib. Deportasiya kampında qalan azərbaycanlıların sözlərinə görə, onun cənazəsinin yaxın günlərdə Azərbaycana göndəriləcəyi gözlənilir.

**Gecə-Gecə döyülən mühacir qapıları və...**

"Yeni Müsavat" xatırladır ki, bu, xaricdə yaşayan azərbaycanlılarla bağlı ilk belə fakt deyil. Dəfələrlə həmvətənlərimiz yaşadıqları ölkədən qovulma təhlükəsinə qarşı canlarına qıyıb və ya kriminala əl atıblar. Bu hekayələrdən bəzilərini yada salaq.

Bu ilin martında Azərbaycan polisinin keçmiş əməkdaşı Səid Camalov Almaniyadan xaric edilib. Zelb şəhərinin polisi gecə yarısı 33 yaşlı Səidin, həyat yoldaşı Mətanətin və dörd uşağlarının yaşadıqları evə hücum edib. Azərbaycanlıların ən zəruri əşyalarını təcili şəkildə toplamağa məcbur edərək Münhen şəhərinin hava limanına aparıblar. Qaçqınlara Yardım Assosiasiyasında hüquq-mühafizə orqanlarının bu cür hərəkətlərindən heyrətə gəliblər. Mənbəyə görə, Səid Camalov Azərbaycanda polis əməkdaşı olub. Rəhbərliklə mübahisədən sonra işdən uzaqlaşdırılıb. Sonradan çörək pulunu ekskavator sürməklə qazanıb. Lakin bu işdən məmnun olmayıb, Avropaya üz tutub.

İlk olaraq Qərbə Səidin 39 yaşlı həyat yoldaşı - tibb bacısı işləyən Mətanət yollanıb. 2011-ci ildə o, uşaqları Elçinlə Ayanı götürərək Fransaya köçüb. Camalov 3 ildən sonra onların dalınca gedib. 2014-cü ildə ailə Almaniyanın Tsirndorf şəhərində yenidən qovuşub, daha sonra isə Zelb şəhərinə göndərilib. Burada onların daha iki uşağı anadan olub - Nur və Mert.

Qaçqınlara Yardım Assosiasiyası ailəni himayəsi altına alıb və indi onlar çox həyəcanlıdırlar. "Bəli, onlara sığınacaq verilməsindən imtina ediblər, lakin ölkədə yaşamaq haqları vardı və buna görə də, daha tolerant qərara ümidli idilər", - Assosiasiyanın əməkdaşı Hella Felker deyir: "Səid Camalov və həyat yoldaşı, şübhəsiz ki, cinayətkar deyildilər və onlar təhlükə törətmirdilər. Əksinə, özləri və uşaqları alman cəmiyyətinə inteqrasiya olunmağı çox istəyirdilər".

Yuxarı Frankoniya torpağının Əcnəbilərlə iş üzrə Mərkəzi İdarəsindən verilən məlumata görə, azərbaycanlı ailənin sığınacaq üçün müraciətinə rədd cavabı verildikdən sonra onlara Almaniyanı könüllü şəkildə tərk etmək imkanı yaradılıb. Lakin müəyyən edilmiş müddətdə onlar ölkəni tərk etməyiblər və deportasiya olunublar. "Onları gecə vaxtı narahat etmələrinin səbəbi isə odur ki, ailə təyyarə reysinə çatmalı idi" - idarədən izah olunub.

Bu ilin yanvar ayında isə Almaniyada Azərbaycana deport edilməli olan ailə miqrasiya bürosunun əməkdaşlarını girov götürüb. Hadisə Gutersloh bölgəsində qeydə alınıb. Belə ki, gecə 03:30 radələrində 49 və 53 yaşlı azərbaycanlı cütlüyün yaşadığı qaçqın yataqxanasına gələn Miqrasiya bürosunun əməkdaşları polislərin iştirakı ilə onları yataqxanadan çıxarmaq istəyib.

Məlum olub ki, 4 nəfərdən ibarət ailənin başçısı və xanımı illər öncə Almaniyaya bir dəfə gəliblər. Daha sonra onlar Azərbaycana qayıdıblar. Bir müddət Azərbaycanda qalan ailə yenidən Almaniyaya gələrək bu ölkədən sığınacaq istəyib. Almaniya Qaçqınlar və Miqrasiya ilə iş üzrə Federal İdarədə (BAMF) baxılan azərbaycanlı ailənin işi ilə bağlı yekun qərar "neqativ" olub. Sözügedən idarə ailə başçısı və xanımı ilə bağlı deport qərarı çıxarıb. Qərarın icrasını yerinə yetirən Miqrasiya bürosu və polis əməkdaşları ailə başçısının və xanımının fiziki təzyiqinə məruz qalıblar.

Qəfildən əl atıb polis əməkdaşlarından birinin xidməti silahını ələ keçirən azərbaycanlı ailə başçısı onları girov götürdüyünü bildirib. Bu zaman evdə olan polis və təcili yardım briqadasının əməkdaşları qaçıblar. Xanımı mətbəx bıçağını götürərək özünə xəsarət yetirməyə başlayıb. Hadisə yerinə gələn əlavə polis əməkdaşları azərbaycanlı ailə başçısının əlindən silahı almağı bacarıb. Məlumatda bildirilir ki, azərbaycanlı ailə 4 nəfərdən ibarət olub. Onların hər iki qızlarının sığınacaq istəyinin qəbul edilib-edilməməsi ilə bağlı məlumat yoxdur. Hadisə vaxtı evdə onların dostları da olub.

**Avropa həmvətənlərimizi niyə geri qaytarır?**

Almaniyadan sığınacaq tələb edən həmvətənlərimiz bu ölkədə xoşagəlməz münasibətlə üzləşiblər. Avropost.com-un məlumatına görə, sığınacaq tələbi rədd edilən, eyni zamanda "Dublin sazişi"nə görə problemlər yaşayan həmvətənlərimizin Almaniyadan deportasiyası sürətləndirilib. Siyasi mühacirlər (o cümlədən qaçqınlar) məsələsi Avropanın ən ciddi problemlərindən birinə çevrilib. Bu problemdə Azərbaycanın da kiçik "payı" var. Azərbaycandan mühacir axını 2003-cü ildən vüsət alıb və bu proses 2005-ci ilin sonunadək davam edib.

Bundan sonra siyasi mühacir axınında nisbətən stabillik yaranıb. Amma 2014-cü ildən Avropaya axın statistikası yenidən artıb. Xüsusilə Azərbaycanda QHT sektorunda həbslərdən sonra mühacir statusu üçün müraciət edənlərin sayında kəskin artım baş verib. Onlar əsasən Gürcüstan və Türkiyədən keçməklə Avropaya üz tutmağa daha çox üstünlük veriblər. Azərbaycanı son aylar tərk edərək Avropada mühacir statusu alan və ya almaq istəyənlərin əksəriyyəti QHT sektorunda çalışanlar, müxalifət partiyalarının fəalları, onların ailə üzvləri və bəzi jurnalistlərdir.

Bir çox tanınmış və ölkənin ictimai həyatında fəal iştirak edən QHT rəhbərləri və jurnalistlər son aylar Avropanın müxtəlif ölkələrinə sığınıblar. Yeri gəlmişkən, bu dalğada Azərbaycanda hətta heç bir təhlükə obyekti olmayanlar da ölkədən çıxmağa başladılar.

"Dublin sazişi" ölkələri Azərbaycandakı siyasi mühacir axınından narahatdırlar və xüsusilə "yalançı mühacirlərin" qarşısını almaq üçün addım atmağa məcbur olublar. Məlumat üçün deyək ki, "Dublin sazışı" siyasi sığınacaq üçün müraciət edən şəxslərin ərizələrinin bu sazişə daxil olan ölkələrdən biri tərəfindən nəzərdən keçirilməsini təmin edir. Sazişin başlıca məqsədi Avropa İttifaqı ölkələrində hər hansı birində qaçqın statusu üçün müraciət etmiş şəxsin müraciətinə baxılmalı olan ölkənin, üzv ölkələrdə ərizəyə vahid qaydada baxılmasının, ölkələr arasında məlumat mübadiləsinin daha effektli aparılmasının, sığınacaq axtaran şəxslərin hüquq və azadlıqlarının qorunmasının, eyni zamanda qanunsuz miqrasiyaya qarşı daha effektli mübarizənin təmin etməyə nail olmaqdan ibarətdir.

Almaniyada keçirilən seçkilərdə Angela Merkelin partiyası CDU-nun (Xristian Demokrat İttifaqı) seçkini qazanmasının ardından federal hökumət mühacirlərlə bağlı mövqeyini bir qədər sərtləşdirib. Belə ki, Almaniyada yaşamaq və işləməklə bağlı müraciət edən həmvətənlərimiz "neqativ" cavabı alıblar. Vəziyyət o həddə çatıb ki, sığınacaq istəyi rədd olunan soydaşlarımız qərardan məhkəməyə müraciət etmədən deport olunublar.

Qeyd edək ki, azərbaycanlıların ən çox məskunlaşdığı bölgə olan Şimali Reyn-Vestfaliyada seçkini CDU udub. Bu partiya AfD kimi Almaniyanın miqrasiyya və qaçqın siyasətinə qarşı sərgilədiyi radikal mövqe ilə tanınır. Partiyada bu mövzuda yumşaq mövqe sərgiləyən yeganə insan - Angela Merkeldir.

Nəzərə çatdıraq ki, son aylar Almaniyaya sığınacaq üçün müraciət edənlərin sayında rekord azalma qeydə alınıb. Bu barədə Almaniya Miqrasiya və Qaçqınlar üzrə Federal İdarədən (BAMF) verilən açıqlamada bildirilir. Belə ki, mart ayı ilə müqayisədə aprel ayında Almaniyaya sığınacaq üçün müraciət edənlərin sayında 14 min 976 nəfərdən 11 min 952 nəfərə qədər bir azalma qeydə alınıb.

BAMF-ın məlumatında qeyd olunur ki, sığınacaq üçün müraciət edənlərin siyahısında birinci yerdə yenə suriyalılar qərarlaşıb. Aprel ayında Suriyadan 2779 nəfər sığınacaq üçün Almaniyaya qaçıb. Siyahıda Suriyadan sonra növbəti yerdə 1242 nəfərlə İraq, 1208 nəfərlə Əfqanıstan, 960 nəfərlə İran, 852 nəfərlə Eriteriya, 626 nəfərlə Albaniya, 498 nəfərlə Nigeriya, 471 nəfərlə Makedoniya, 459 nəfərlə Somali, 449 nəfərlə Türkiyə qərarlaşıb. Sorğuda azərbaycanlıların sayında da azalmanın qeyd olunduğu bildirilir. Belə ki, bu ilin yanvar ayı ilə müqayisədə aprel ayında Almaniyadan sığınacaq istəyən azərbaycanlıların sayı 353 nəfərdir.

**Ölümcül xəstəliyə tutulub, vətənində basdırılmaq istəməyən mühacirlər**

Yaşadığı ölkəni özünə son mənzil seçən həmvətənlərimiz də az deyil. Hətta ölümcül xəstə olduğunu bilərək, Azərbaycanda basdırılmaq istəməyənlər də var. Bir neçə ay öncə Belçikada yaşayan mühacir, satirik şair Mirzə Sakit bir qəbiristanlıqda çəkilən fotonu paylaşaraq, aşağıdakı statusu yazıb: "Ağır sürən xəstəlikdən xilas ola bilməyən gənc soydaşımız Fuad bəyi bu gün Belçika torpağında dəfn etdik. Dünyadakı bütün torpaqlar müqəddəsdir. Ancaq qürbət diyarda onun anasının naləsinə dözmək çox ağrılı məsələdir. Ruhu şad olsun soydaşımızın".

Mərhum Haqverdiyev Fuad Belçikanın Lalova şəhərində yaşayırdı və xərçəng xəstəliyinə tutulmuşdu: "Çox təəssüflər olsun ki, həkimlər onu xilas edə bilməyib və o, fevralın 2-də keçinib. Amma meyiti morqda olduğundan dəfn mərasimi bir neçə gün sonra baş tutub. Çünki bəzi prosedurlar Belçikada vaxt aparır. Biz onu fevralın 7-də Lalova qəbiristanlığının müsəlmanlara aid hissəsində dəfn etdik".

Satirik mərhum F.Haqverdiyevin heç bir siyasi partiyanın üzvü olmadığını dedi: "Mərhum Fuad bəyin oturumu var idi. Bacanağı, qayınatasının da oturumu var. Qayınatası ADP üzvüdür. Özü heç bir partiyanın üzvü deyil. Mənim onunla bağlı məlumatlarım bundan artıq deyil".

"Yeni Müsavat" bildirir ki, bir çox hallarda mühacirlərin geri qaytarılmasına onlara ölkədə verilən saxta, heç bir həqiqəti əks etdirməyən sənədlər səbəb olur. Belə ki, bir neçə dəfə daxili işlər orqanları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində ayrı-ayrı şəxslərə xarici dövlətlərdə siyasi mühacir statusu almalarına köməklik göstərəcəklərini vəd edən şəxslər yaxalanıb. Daxili İşlər Nazirliyi əməkdaşları tərəfindən Bakı şəhər sakinləri - "Mozalan" jurnalının məsul katibi Ramil Muradov və "Dövlət və ictimai fikir" qəzeti ilə "Obyektiv xəbər.com" veb saytının baş redaktoru Çingiz İbadov göstərəcəkləri xidmətin müqabilində konkret vətəndaşdan Xırdalan şəhərində razılaşdıqları 4000 manatlıq məbləğin 1300-nü və sənədlərinin surətlərini alarkən saxlanılıblar.

Araşdırmalarla müəyyən olunub ki, onlar həmin vətəndaşın adından sosial şəbəkələrdə və bir sıra elektron kütləvi informasiya vasitələrində Azərbaycanın dövlət mənafeyi və ümummilli maraqları əleyhinə yanlış, qərəzli məlumatlar, eyni zamanda, sonuncunun guya ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən əsassız təqib edilməsi, hüquqlarının pozulması barədə böhtan xarakterli materiallar yerləşdiriblər.

**"Onlar miqrasiya xidmətini inandırmaq istəyirlər ki..."**

Adının çəkilməsini istəməyən azərbaycanlı mühacirlərdən biri "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bir çox hallarda Avropaya sığınan azərbaycanlılar vətənindəki bütün körpüləri yandırıb gəlir. Bu zaman geriyə qayıtmaq ona ölümə bərabər görünür. Gerçəkdən təhlükədən qaçıb Avropaya sığınanlar üçün bu, tipik mənzərədir. Amma onlarla yanaşı, ölkədəki bütün mal varlığını satıb da, mühacirətə gələnlər üçün bu durum ikiqat ağırdır: "Onlar bilirlər ki, vətəndə hər şeyə sıfırdan başlamağa məcburdular. Üstəlik, Avropada onlara vəd edilə biləcək yaşantının burda bir qırıntısı da yoxdur. Ümidsizlik, pessimizm onları buna vadar edir. Amma etiraf etməliyik ki, bəzən blef, şantaj məqsədi ilə belə addım atanlar da olur. Onlar belə radikal addım atmaqla miqrasiya xidməti əməkdaşlarını öz durumlarının necə faciəvi olduğuna, geri qayıtdıqları halda başlarına pis hadisələr gələ biləcəyinə inandırmaq istəyirlər".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 126 (7015) 11 iyun 2018

## Əlini qaynayan yağın içinə salır

**Hindistanın paytaxtı Dehlidə yaşayan kişi görənləri heyrətə salır. Balıq restoranın sahibi olan Prem Sinq adlı kişi əllərini 200 dərəcə temperaturda qaynayan yağın içərisinə salır və orada balıq qızardır. 25 ildir ki, bu işlə məşğul olan Sing əlini isti yağın içərisinə salarkən heç nə hiss etmədiyini deyir.**

P.Sinq bu qeyri-adi istedadını təsadüfən bilib. İlk dəfə əlini təsadüfən yağa vurub və əlinin yanmadığını görüb. Sonra insanları təəccübləndirmək üçün bu işlə məşğul olmağa başlayıb. Onun sözlərinə görə, 200 dərəcəlik qaynar yağda əlləri balıq qızartdığı üçün restoranın müştərilərinin sayı xeyli artıb. Hər kəs onu görmək üçün restorana balıq yeməyə gəlir.



## Pis xatirələri silməyin yolu

**Hollandiyanın Radboud Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, elektroşok müalicəsi ilə pis xatirələri silmək mümkündür. Depressiya xəstələri üzərində aparılan araşdırmalar göstərib ki, bu, insanların yaddaşından pis xatirələri silmək və onları psixoloji travmalardan uzaqlaşdırmaq üçün ən yaxşı vasitədir.**

Təcrübə zamanı 39 nəfər 4 qrupa bölünüb. Qruplardan ikisinin üzvlərinə avtomobil qəzasının videoları izlətdirilib. Sonra isə elektroşok dalğalarının köməyi ilə onların yaddaşından videonu izlədikləri anlar silinib. Mütəxəssislər depressiya xəstələrini dərmanla müalicə etməkdənsə, bu yolu seçməyin daha effektli olduğunu deyirlər.

# Gec evlənən qadınlar daha xoşbəxtdir

**Adnan Menderes Universitetinin tədqiqatçı-professor heyətinin apardığı araşdırma sübut edib ki, qadınların yaşı evlilikdəki xoşbəxtlikdə böyük rol oynayır. 34 cütlük üzərində aparılan araşdırma gec evlənən qadınların daha xoşbəxt olduqlarını göstərib.**



Üstəlik, 30 yaş civarında ailə quran qadınlar ailə içində yaranan problemi təkbaşına aradan qaldıra bilirlər. Bundan başqa, "Hansı halda evliliyinizi xilas etmək üçün mübarizə aparırsınız" sualına da qadınların 82 %-i "mütəmadi bir hal almadığı halda xəyanət belə olarsa, mübarizə apararam" deyib. Bu yaşda evlənən qadınlar işin içinə təzyiq, cinsi və fiziki zorakılıq girmədiyi müddətcə evliliyi davam etdirirlər.

# Yemək yediyi üçün pul qazanır

**Cənubi koreyalılar internetdə sözün əsl mənasında pul qazanmağın asan yolunu tapıb. Gördüyünüz qızın adı Park Su Yundur, İnternetdə isə onu Diva adı il tanıyırlar. Divanın işi kamera qarşısında sadəcə yemək yeməkdən ibarətdir.**

Onun hər gün 3 saat ərzində xımır-xımır yeməyi internetdə onlayn şəkildə yayımlanır və onun yemək yeməyinə minlərlə insan öz fərdi kompüterindən və ya internet salondan tamaşa edir.

Qeyri-adi yayımın tamaşaçıları, onunla çatlaşa və ya sonradan həqiqi pula çevrilə bilən, virtual şarlar yollaya bilər. Park Su Yun başqaları kimi qazancını gizlətmir, o bu yolla ayda 9 min dollara yaxın qazanc əldə edir. Onlayn Yemək nümayişi o qədər uğurlu olub ki, o işlədiyi konsaltinq şirkətindən belə çıxıb. Özünün dediyinə görə, şou ona görə məşhurdur ki, bəziləri onun kimi çox yemək yeyə bilmir, digərləri isə evdə təkbaşına nahar etmək istəmir.

Statistika bu trendin belə yüksək olmasının əsl səbəblərini üzə çıxarıb. Belə ki, Cənubi Koreyada evdə tək yaşayanların sayı son vaxtlar o qədər çoxalıb ki, 15 il ərzində bələlərinin əhalinin üçdə birini təşkil edəcəyi proqnozlaşdırılır.





## Solariumu qadağan etdilər, çünki...

**Avstraliyada dəri xərçəngindən dünyasını dəyişənlərin sayı artdığı üçün ölkə rəhbərliyi yanvar ayından etibarən solariumu qadağan edib. Daha dəqiq desək, 6 ştatdan 4-ündə qadağan rəsmi qüvvəyə minib, 2-sində isə yasaq paketi ilə bağlı danışıqlar gedir. Ölkənin South Australia, Victoria, Queensland ve New South Wales ştatları artıq qadağanı rəsmən qəbul ediblər.**

Bu ştatlarda tibbi səbəblər xaricində solariumdan istifadə qadağandır. Ölkənin cənib bölgələrində isə solarium xidməti verən qurumlar fəaliyyət göstərmədiyi üçün qadağaya ehtiyac görülməyib. Tazmanya ve Western Australia ştatlarında isə hələ də qadağan rəsmən qüvvətə minməyib. Avstaliyanın Xərçəng Konseyinin açıqladığı rəsmi bəyanata görə, ölkədə hər il orta hesabla 50 nəfər solariumdan qaynaqlanan dəri xərçəngine görə dünyasını dəyişir. Belə ki, hər il orta hesaba 1500 nəfər melanom qaynaqlı dəri xərçəngi tipi melanomaya yoluxur. Avstraliya dünyada melanoma xərçəng növünün ən çox rast gəlindiyi ölkədir.




**QOÇ** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq getmək də olar.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**ƏKİZLƏR** - Bürcünüzün ən aktiv dövrü olduğundan göstərilən müddətdə uğurlu anlarınız çox olacaq. Odur ki, gün ərzində canfəşanlığınızı daha da artırmalısınız. Axşama yaxın sürprizlər mümkündür.

**XƏRÇƏNG** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**ŞİR** - Ümumi çalarlarına görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Uzaq səfərə çıxmağa, qonaq getməyə dəyər.

**QIZ** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**TƏRƏZİ** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam qonaq getmək maraqlı olacaq.

**ƏQRƏB** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Zamanı geri qaytarıb səhvinizi düzəltməkdənsə, real hədəflərə doğru irəliləyin.

**OXATAN** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**OĞLAQ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**SUTÖKƏN** - Kənardan kömək olmasa, hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**BALIQLAR** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Səfərə çıxmaq istəyirsinizsə, bu planı saat 12-yə qədər reallaşdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hamı it saxlayır, o isə qoyun



**İsveçrədə yaşayan 55 yaşlı Ellen Henderson adlı qadın evində it və pişik əvəzinə qoyun saxlayır. Princess adlı qoyunu artıq ailələrin bir fərdi olaraq gördüklərini deyən Henderson aşağıdakıları bildirib: "Bu qoyun bizimlə alış-verişə gedir, qızımla birgə yatır, hətta birlikdə eyni süfrədə səhər yeməyi yeyirik. Princess o qədər ağıllıdır ki, nə zaman nə etməli olduğunu çox yaxşı bilir. Princess ilə bağlı bircə problemimiz var: o da toyuqlarımızın yemini oğurlamasıdır".**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100